RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 132 (8448) CÜMƏ, 10 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# BMT-dən İlham Əliyevə tam dəstək

## Baş katib Antonio Quterreş Azərbaycan Prezidentinin həmrəylik təşəbbüsünü qlobal pandemiyaya qarşı mübarizədə mühüm addım kimi dəyərləndirdi

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının təşkil olunması təşəbbüsü reallığa çevrilir. Beynəlxalq təşkilatın Baş katibi Antonio Quterreş də Azərbaycan Prezidentinin irəli sürdüyü təklifi dəstəklədiyini bəyan edib.

Azərbaycan Prezidenti bu təklifi 2 ay öncə, mayın 4-də Qoşulmama Hərəkatının "COVID-19-a qarşı birlikdəyik" mövzusundakı Zirvə görüşü zamanı irəli sürmüşdü. Cənab İlham Əliyevin bu təşəbbüsünə qısa zamanda 130-a qədər ölkə dəstək verərək, BMT Baş katibinin ofisini məlumatlandırmışdı. İyulun 8-də isə dövlət başçısı ilə Antonio Quterreş arasındakı telefon danışığı zamanı Baş katib bu təşəbbüsə tam dəstəyini nümayiş etdirdi.

### Epidemiyadan qurtuluş qlobal həmrəyliyi diktə edir

Aylardır qlobal pandemiya ilə mübarizədə aciz durumda qalan dünya dövlətləri böhran şəraitindən qurtula bilmir. Koronavirusun cəmiyyətlər üzərindəki dağıdıcı təsiri və iqtisadiyyatın, ticarətin ciddi şəkildə tənəzzülü aydın şəkildə görünməkdədir. Bütün bunlar mövcud problemi getdikcə daha da dərinləşdirir. Mütəxəssislər hesab edirlər ki, qlobal problemdən qurtulmaq bir sıra şərtləri diktə edir və onlardan biri də virusla mübarizədə beynəlxalq həmrəylikdir.

Qlobal pandemiyanın uzaq Çindən yayılaraq dünyanı çənginə almağa başladığı dövrdə ölkə daxilində qabaqlayıcı tədbirlər görən, mühüm qərarlar qəbul edən Azərbaycan Prezidenti koronavirusun qarşısının alınmasında yalnız yerli nümunələr yaratmaqla kifayətlənmədi. Həm Qoşulmama Hərəkatı, həm də Türk Şurasına rəhbərlik edən Azərbaycan Prezidenti cənab İlham Əliyev epidemiyaya qarşı qlobal həmrəyliyin, beynəlxalq əməkdaşlığın artırılması ilə bağlı dünya dövlətlərinə çağırışlar etdi. Prezident videokonfrans formatlı bütün görüşlərində bu xoşməramlı, humanist təşəbbüsü bir daha irəli sürdü və bu mühüm sessiyanın keçirilməsi ilə əlaqədar texniki-logistik məsələlərin həllində Azərbaycanın öz töhfəsini verməyə hazır olduğunu bildirdi.

Bir sözlə, virusun qlobal problemə çevrilməsini nəzərə alaraq, onunla mübarizədə beynəlxalq əməkdaşlığı zəruri hesab edən cənab İlham Əliyev bununla dünya birliyinə mühüm mesaj ünvanladı. Hətta Prezidentin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün, mayın 4-də Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsində də əsas məqsəd koronavirusun yayılmasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsindən ibarət olmuşdur.

Artıq dünyanın əksər dövlətləri və beynəlxalq təşkilatlar Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüsləri təqdir edir. Çünki dünya görür ki, indiki halda səylərin birləşdirilməsi, birgə addımların atılması, təcrübə mübadiləsinin aparılması fonunda həmrəylik sərgilənməsi bəşəri bəlanın neytrallaşdırılmasında önəmlidir. Bu mənada cənab İlham Əliyevin söylədiyi kimi, koronavirus pandemiyası bəşəri təhlükə olduğu üçün qlobal cavab tələb edir.

### 130 dövlətin dəstəyi İlham Əliyevə inam və etimadın göstəricisidir

May ayının 4-də Qoşulmama Hərəkatının Zirvə görüşündən sonra Azərbaycan Prezidentinin təşəbbüsü üzv ölkələr arasında razılaşdırılmış və bundan sonra cənab İlham Əliyev üzv ölkələr adından Baş katib Antonio Quterreşə müraciət etmişdi. Öz növbəsində BMT Baş katibi mayın 28-də Baş Assambleyanın "Prosedur Qaydaları"na əsasən, üzv ölkələrə müraciət edərək 30 gün müddətində təşəbbüsə dair münasibət bildirmələrini istəmişdi. Qaydalara əsasən, BMT üzvü olan ölkələrin çox hissəsi təşəbbüsə dəstək verdiyi təqdirdə xüsusi sessiya təşkil olunmalıdır.

Qısa müddət ərzində 130-dan çox ölkə Azərbaycan Prezidentinin təşəbbüsünə dəstək verdiklərini bəyan etdilər. Təşəbbüsə qarşı çıxış edən yeganə dövlət isə işğalçı Ermənistan oldu.

Ardı 4-cü səh.

# Azərbaycanın enerji sistemində köklü islahatlar davam edir

## Prezident İlham Əliyev Bakının Nizami rayonunda yenidən qurulan "8-ci km" yarımstansiyasının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Bakının Nizami rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/10 kilovoltluq "8-ci km" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin sədri Baba Rzayev yarımstansiyada görülən işlər barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, "8-ci km" yarımstansiyası 52 il əvvəl tikilmiş və istismar müddətini çoxdan başa vurmuşdu. Nəticədə burada tez-tez qısa qapanmalar olurdu və enerji sistemi qəza təhlükəsi ilə üzləşirdi. Yenidənqurma nəticəsində bu problemlərin hamısı aradan qaldırılıb. Burada görülən yenidənqurma işləri çərçivəsində yarımstansiyanın açıq və qapalı paylayıcı qurğuları, transformatorları, inzibati-idarəetmə binası və digər zəruri infrastrukturu müasir səviyyədə yenilənib.

Ardı 2-ci səh.



# Erməni yalanları bütün dünyada ifşa edilir

## İlham ƏLİYEV: "Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilibdir"

Azərbaycanın söz sahibi kimi istər regionda, istərsə də qlobal miqyasda nüfuzunun yüksəlməsi, eyni zamanda həyata keçirdiyi siyasət son illərdə Ermənistanın beynəlxalq miqyasda ifşasını sürətləndirib. İndi bu ölkə və onun diaspor təşkilatları "məzlum erməni xalqı" pərdəsinə bürünərək əvvəlkitək beynəlxalq ictimaiyyəti aldada bilmir. Beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin əsl həqiqətləri söyləməsi prosesi artıq sürətlənib.

### Saxta təbliğat iflasa uğrayır

Baş verənlər barədə əsl həqiqətlərə önəm verməyə başlayan müxtəlif ölkələrin parlamentlərinin, beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar da Ermənistanın təcavüzkar siyasətinin ifşasına yol açıb. Xüsusən Xocalı soyqırımının tanınması ilə bağlı qəbul edilən qətnamələr həm də dünya erməniliyinə və yalançı erməni təbliğatına güclü zərbə vurub. Görünən odur ki, Prezident İlham Əliyevin başlatdığı hücum diplomatiyası nəticəsində artıq dünyadakı erməni mifi dağılmağa başlayıb və saxta erməni təbliğatı iflasa uğrayır. Uğurla davam edən bu tendensiya qondarma erməni soyqırımını təbliğ edən ermənilərin niyyətlərini, planlarını da alt-üst edib. İndiyədək danışıqlar prosesinin bütün mərhələləri də yalnız və yalnız Azərbaycanın diplomatik uğurları ilə müşayiət olunub. Əslində, Ermənistanın danışıqlar prosesini iflic halına salması da Azərbaycanın təzyiqi ilə dalana dirənməsidir və özünü ifşa etməsidir.

Prezident İlham Əliyev hər bir beynəlxalq tədbir çərçivəsində Ermənistanın əsl mahiyyətini faktlarla ifşa edir, bu ölkənin terrorizmi dəstəklədiyini, terrorçuları isə qəhrəmanlaşdırdığını faktlarla sübuta yetirir. Bu baxımdan Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında son sammiti ölkəmiz üçün yalnız Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafda olmasının təsdiqi kimi yadda qalmadı.

Ardı 4-cü səh.




# Pandemiyanı yalnız karantin rejiminə əməl etməklə nəzarətdə saxlaya bilərik

Dünyada pandemiya ilə bağlı vəziyyət getdikcə pisləşir. Peyvənd tapılmadığı üçün koronavirus - COVID-19 infeksiyasına qarşı görülən tədbirlərin heç biri effektiv olmayıb. Yoluxmanın qarşısını almaq üçün tətbiq olunan karantin rejimləri yumşaldılanda isə virus yenidən alovlanır.

Artıq Yer üzündə koronavirusa yoluxanların sayı 12 milyonu keçib, virusun aldığı canlar isə yarım milyondan çoxdur. Təəssüfləndirici reallıq bundan ibarətdir ki, vaksin tapılmayana qədər COVID-19 bəlasından tamamilə qurtulmaq qeyri-mümkündür.

Azərbaycanda da koronavirusa yoluxma və ölüm sayı kifayət qədər ciddidir. İndiyə qədər ölkəmizdə ümumilikdə koronavirusa yoluxanların sayı 20 mini ötüb, 200-dən çox vətəndaşımız həyatını itirib. Bunlarla yanaşı, müsbət haldır ki, virusdan sağalanların da sayı kifayət qədər - 13 mindən çoxdur ki, bu da zamanında görülən tədbirlərin nəticəsidir.

Ardı 5-ci səh.

# Konstitusiyaya düzəliş qərarı Paşinyana nifrəti artırıb

## Ermənistanda daxili qarşıdurma daha da kəskinləşir

Son günlərdə Ermənistanda ciddi çəkişmə predmetinə çevrilən məsələlərdən biri də Konstitusiyaya düzəlişlər edilməsi ətrafında baş verənlərdir. Artıq bu məsələ fonunda Ermənistanın müxalif "Çiçəklənən Ermənistan", "Vətən" və "Daşnaksütyun" partiyaları baş prokurorluqdan qanunverici və icraedici hakimiyyət nümayəndələrinə qarşı Konstitusiya quruluşunun dəyişdirilməsi, hakimiyyətin qəsb olunması və səlahiyyətləri aşma əlamətləri üzrə cinayət işlərinin açılmasını tələb edib.

"Vətən" partiyasının üzvü Arsen Babayan bildirib: "Hakimiyyət iki ildir ki, bütün qanunları və Konstitusiyanı pozur. Parlamentin Konstitusiyaya düzəlişlər etmək və Konstitusiya Məhkəməsini istefaya göndərmək hüququ yoxdur. Parlament belə düzəlişləri Konstitusiya Məhkəməsi ilə razılaşmadan qəbul edə bilməz. Biz Baş prokurorluqdan Konstitusiya quruluşunun dəyişdirilməsi, hakimiyyətin qəsb olunması və səlahiyyətləri aşma əlamətləri üzrə cinayət işlərinin açılmasını tələb edirik".

Qeyd edək ki, iyunun 22-də Ermənistan parlamenti Konstitusiya Məhkəməsinin üç üzvünün istefaya getməsi barədə Konstitusiyaya düzəliş edib. Həmçinin düzəlişlərə əsasən, Qrayr Tovmasyanın Konstitusiya Məhkəməsinin rəhbəri qismində səlahiyyətləri əlindən alınıb. Müxalifət isə düzəlişlərin Konstitusiyaya zidd olduğunu hesab edir. Erməni politoloq Sergey Şakartsants qeyd edir ki, koronavirusa qarşı mübarizədə uğursuz olmuş Ermənistan hakimiyyəti hər şəkildə Konstitusiya sistemini də devirməyə çalışır: "Ermənistanda müxalif siyasi qüvvələr aktiv olsa da, hakimiyyəti hələ cilovlaya bilmirlər, çünki hamı müxalifətin böyük birləşməsi haqqında danışır, ancaq bunun konturu çəkilmir. Amma çox qısa müddətdə Ermənistanda milli qurtuluş hökuməti formalaşacaq".

Xatırladaq ki, hələ bu il aprelin 5-də Ermənistanda əsas qanuna dəyişikliklərin edilməsi, 2015-ci ildə Konstitusiya islahatına qədər təyin edilmiş Konstitusiya Məhkəməsi sədri olan Qrayr Tovmasyanın və məhkəmə üzvlərinin səlahiyyətlərinin dayandırılmasını nəzərdə tutan referendumun keçirilməsi planlaşdırılıb.

Ardı 4-cü səh.

# Azərbaycanın enerji sistemində köklü islahatlar davam edir

## Prezident İlham Əliyev Bakının Nizami rayonunda yenidən qurulan "8-ci km" yarımstansiyasının açılışında iştirak edib






*Əvvəli 1-ci səh.*

Yarımstansiyanın yenidən qurulmasını zəruri edən səbəblərdən biri də Nizami rayonunda 35 kV-luq şəbəkənin genişlənməsi və gərginlik sinfinin dəyişdirilməsi idi. Görülən işlər nəticəsində yarımstansiyanın gücü 55 MVA-dək artırılıb. Burada yaradılmış Dispetçer İdarəetmə Mərkəzi və mikro SCADA sistemi yarımstansiyanın fəaliyyətinin səmərəliliyini daha da yüksəldib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı. Yenidən qurulan bu yarımstansiya Xətai və Nizami rayonlarında yüz minlərlə əhalinin, sənaye, məişət-kommunal, təhsil, tibb və iaşə müəssisələrinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsində mühüm rol oynayacaq.

Qeyd edək ki, son iki ildə ölkəmizdə sistem əhəmiyyətli 20-dən çox yarımstansiyada tikinti, yenidənqurma, təmir və bərpa işləri aparılır. Bugünədək 220 kV-luq "Müşfiq", 110 kV-luq "Zabrat", "Dübəndi" və "Əhmədli" yarımstansiyaları yenidənqurmadan sonra istismara verilib. 220 kV-luq yeni tikilən "Böyükşor" və yenidən qurulan "Xırdalan" yarımstansiyalarında işlər tamamlanıb. Eyni zamanda, 500 kV-luq "Abşeron" və 110 kV-luq 10-dan çox yarımstansiyada işlər davam edir.

Bu gün Azərbaycanda enerji sistemdə aparılan köklü islahatların nəticəsidir ki, ölkə əhalisini dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək mümkün olub. Ümumilikdə son dövrlərdə bu sahədə həyata keçirilən kompleks tədbirlərin sırasında mövcud yarımstansiyaların müasir səviyyədə yenidən qurulması və bu cür yeni qurğuların inşası xüsusi yer tutur. "8-ci km" yarımstansiyasının yenidən qurulması bu istiqamətdə icra olunan işlərin ardıcıllıqla həyata keçirildiyini nümayiş etdirir.

# "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1389-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2316) ilə təsdiq edilmiş "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Nizamnaməsi"nin 3.1.22-ci yarımbəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2020-ci il*

# Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1389-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 504 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2020-ci il*

# *Mariya ZAXAROVA:* "Rusiya BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının çağırılması barədə Azərbaycanın təklifini dəstəkləyib"

Rusiya BMT-nin Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyasının çağırılması barədə Azərbaycanın təklifini dəstəkləyib.




AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova bunu Moskvada növbəti brifinqdə elan edib. O deyib: "Qoşulmama Hərəkatının və bu Hərəkatın sədri kimi Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyasının çağırılması barədə qərar qəbul edilib. Rusiya MDB üzrə öz tərəfdaşının bu təklifini dəstəkləyib. Biz əminik ki, xüsusi sessiya konstruktiv ruhda keçiriləcək və substantiv qərarlar qəbul edilməsi ilə başa çatacaq. Bu baxımdan maraqlı diskussiya gözləyirik. Nyu Yorkda mürəkkəb epidemioloji vəziyyətin qaldığı şəraitdə xüsusi sessiyanın distant formatda keçirilməsi planlaşdırılır. Hazırda müvafiq prosedurlar razılaşdırılmaqdadır".

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşündə pandemiyaya qarşı mübarizənin müzakirə edilməsi məqsədilə BMT-nin Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış edib. BMT üzvü olan 130-dan artıq dövlət bu təşəbbüsü dəstəkləyib.

# Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının növbəti iclası videokonfrans formatında keçirilib




İyulun 9-da Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun sədrliyi ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının növbəti iclası videokonfrans formatında keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Əli Əhmədov COVID-19 pandemiyası dövründə dayanıqlı inkişafın təmin olunması, bu sahədə görülmüş işlər və qarşıda duran vəzifələr, habelə "Dayanıqlı İnkişafa dair İkinci Bakı Forumu"nun təşkilinin cari vəziyyəti və "Azərbaycan 2030 İnkişaf Strategiyası (2021-2030)"nın hazırlanması məsələlərinin müzakirəsinin vacibliyini diqqətə çatdırıb.

Baş Nazirin müavini gündəlikdə yer alan məsələlərə, o cümlədən dayanıqlı inkişafın təmin edilməsi, ələlxüsus ortamüddətli dövrdə makroiqtisadi sabitliyin qorunması, iqtisadi inkişafın canlandırılması, inklüziv və dayanıqlı iqtisadi artımın təmin edilməsi, tam və səmərəli məşğulluğa nail olunması prioritetlərinə dair müvafiq tapşırıqlarını Şura üzvlərinin diqqətinə çatdırıb.

Şuranın sədrinin müavini, İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edərək dünya ölkələrini əhatə edən COVID-19 pandemiyasının sosial-iqtisadi təsirləri, o cümlədən milli iqtisadiyyatı ressesiyaya apara biləcək faktorların qarşısının alınması, xüsusilə iqtisadi aktivliyin qorunması, biznesə dəstək proqramlarının həyata keçirilməsi, uzunmüddətli dövrdə iqtisadi inkişafın əsas strateji xətti olaraq qeyri-neft sektorunun formalaşdırılmasının zəruriliyini qeyd edib.

M.Cabbarov "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının ölkəmizin inkişaf xəttinin müəyyən edilməsində rolunu, uzunmüddətli inkişaf hədəflərinə çatmaq üçün sosial-iqtisadi alətləri, həyata keçiriləcək tədbirləri özündə ehtiva edəcək və dayanıqlı inkişaf məqsədlərinə tam inteqrasiya olunmuş yeni bir yanaşmanı əks etdirəcək "Azərbaycan 2030 İnkişaf Strategiyası"nın bu baxımdan vacib sənəd olacağını vurğulayıb.

Eyni zamanda, dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində irəliləyişlərə nail olunması üçün qarşıda duran çətinliklərin aradan qaldırılması və pandemiyanın qlobal təsirlərinin qiymətləndirilməsi məqsədilə regional tərəfdaşlığın gücləndirilməsinə həsr olunacaq və cari ilin oktyabrında keçiriləcək "Dayanıqlı İnkişafa dair İkinci Bakı Forumu"nun əhəmiyyəti və gözlənilən nəticələri iclas iştirakçılarının diqqətinə çatdırılıb.

İclasda pandemiya dövründə "Dayanıqlı İnkişaf: görülmüş işlər və qarşıda duran vəzifələr"lə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü, Səhiyyə nazirinin müavini Elsevər Ağayev, İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova çıxış ediblər.

Sonda "Dayanıqlı İnkişafa dair İkinci Bakı Forumu"nun təşkili və bununla əlaqədar zəruri məsələlərin həll edilməsi, "Azərbaycan 2030 İnkişaf Strategiyası (2021-2030)"nın hazırlanması və icrası üzrə ümumi əlaqələndirilmənin Şura tərəfindən həyata keçirilməsi, habelə bu istiqamətdə BMT-nin Azərbaycan nümayəndəliyinin dəstəyinin dəyərləndirilməsi barədə qərarlar qəbul olunub.

# Azərbaycanda koronavirusa daha 548 nəfər yoluxub, 491 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 548 yoluxma faktı qeydə alınıb, 491 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 10 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 22 min 464 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 13 min 591 nəfər müalicə olunaraq sağalıb, 284 nəfər vəfat edib. Aktiv xəstə sayı 8589 nəfərdir.

Ötən müddət ərzində 544 min 735 test aparılıb. Bugünkü test sayı isə 7505-dir.




# BƏT Qlobal Sammiti çərçivəsində təşkil olunan "Tərəfdaşlar Günü" tədbirinin açılışında pandemiya dövründə sosial məsələlərin həlli barədə məlumat verilib

Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən "COVID-19 pandemiyasının əmək sahəsinə təsiri" mövzusunda videokonfrans formatında təşkil edilən Qlobal Sammit çərçivəsində "Tərəfdaşlar Günü" tədbiri keçirilib.



35 ölkədən nazir və nazir müavinlərinin iştirak etdiyi tədbirin açılışında çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bu tədbirin COVID-19 pandemiyasının əmək bazarına mənfi təsirinin qarşısının alınması sahəsində BƏT-ə üzv ölkələrin müsbət təcrübələrini bölüşmək, eləcə də həmin mənfi təsirləri yumşaltmaq yollarını müəyyənləşdirmək üçün unikal bir imkan olduğunu deyib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə pandemiya dövründə əhalinin sağlamlığının qorunması, iqtisadiyyatın, sosial rifahın dəstəklənməsi sahəsində görülən genişmiqyaslı tədbirləri diqqətə çatdırıb. Azərbaycan hökumətinin yeni vəziyyətə dərhal və adekvat reaksiya verdiyini, virusun yayılmasını azaltmaq üçün çoxsaylı məhdudlaşdırıcı tədbirlər görüldüyünü, vətəndaş həyatının təhlükəsizliyinin ön planda dayandığını vurğulayıb. Əhalinin sağlamlığının qorunması üçün görülən işləri diqqətə çatdıran S.Babayev, həmçinin bildirib ki, ölkəmizin bütün səhiyyə sistemi virusa qarşı mübarizəyə səfərbər olunub. Qısa müddətdə 2000 çarpayılıq 10 modul tipli xəstəxana açılmasına başlanılıb, onlardan 6-sı artıq tam fəaliyyət göstərir.

S.Babayev iqtisadiyyata və sosial rifaha təxirəsalınmaz dəstək tədbirlərinin görülməsi üçün ümumi dəyəri 3,5 milyard manat, yəni 2 milyard ABŞ dolları olan xüsusi Fəaliyyət Planının təsdiq edildiyini bildirib. Məşğulluq və sosial rifahı dəstəkləmək üçün 4 istiqamət üzrə 12 tədbirin həyata keçirildiyini və həmin tədbirlərin əhalinin 48 faizini və ya 4,8 milyon insanı əhatə etdiyini deyib. O, dövlət və özəl sektorlarda işçilərin əsassız işdən çıxarılmasının qarşısının alınması, işçilərin əməkhaqlarının qorunması, ödənişli ictimai iş yerləri proqramının genişləndirilməsi üçün aparılan işləri qeyd edib. İşsiz və gəlirini itirmiş aztəminatlılardan ibarət 600 min şəxsə yaşayış minimumu qədər birdəfəlik ödənişlər edildiyini bildirib.

Nazir özünüməşğulluq və ünvanlı sosial yardım proqramlarının genişləndirilməsi, əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramının təkmilləşdirilməsi işləri, kommunal xidmətlərin ödənişləri üzrə güzəştlər, həssas qruplar üçün həyata keçirilən digər dəstək tədbirləri barədə məlumat verib. O, həmçinin sosial ödənişlərin davamlılığının təmin edilməsi, 65 yaşdan yuxarı tənha yaşlılara, sosial xidmət müəssisələrində xüsusi qayğıya ehtiyacı olanlara sosial xidmətlər göstərildiyini, sosial tərəfdaşlar vasitəsi ilə tənha yaşlılara və əlilliyi olanlara 100 minədək ərzaq yardımı paylarının verildiyini deyib.

S.Babayev məşğulluğun qorunmasında sosial dialoqa xüsusi əhəmiyyət verildiyini, bu məqsədlə Xüsusi Koordinasiya Şurası yaradıldığını, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan İşəgötürənlər Konfederasiyasının da bu Şurada təmsil olunduqlarını bildirib.

Pandemiya dövründə xidmətlərin onlayn müstəvidə, proaktiv şəkildə təkmilləşdirilməsi sahəsində aparılan mühüm işləri qeyd edən nazir məşğulluqla bağlı dolğun elektron məlumat bazasının yaradıldığı haqqında məlumat verib.

Mövcud şəraitdə birgə səylərin, qarşılıqlı dəstəyin önəmini vurğulayan nazir Azərbaycanın pandemiyaya qarşı mübarizədə 30-dan çox ölkəyə humanitar yardımla dəstək verdiyini, bundan sonra da Azərbaycanın dostlarına kömək etmək əzmində olduğunu vurğulayıb.

# Azərbaycanın milli maraq və mənafelərini layiqincə təmin edən siyasət

## Pandemiya dövrünün çətinliklərinə baxmayaraq, Prezident İlham Əliyev respublikanın yüksəlişinə xidmət edən siyasi kursunu böyük qətiyyətlə, müdrikliklə, uzaqgörənliklə həyata keçirir

(Əvvəli qazetin 9 iyul tarixli nömrəsində)

### İqtisadiyyatımızın dayanıqlığı və ahəngdarlığı üçün bütün imkanlar səfərbər edilir

COVID 19-un yeni çağırışlarla üzüzə qoyduğu dünya dövlətlərini düşündürən əsas məsələlərdən biri iqtisadiyyatda baş verən geriləmələrdir. İstisnasız olaraq bütün inkişaf etmiş dövlətlərin iqtisadi durumu pisləşib. Almaniya, ABŞ kimi dövlətlərin iqtisadçıları ölkələrinin öz inkişaf tarixinin ən çətin dövrünü yaşadığını gizlətmirlər. Beynəlxalq iqtisadi qurumlar bildirirlər ki, qlobal iqtisadiyyatın pandemiyadan əvvəlki vəziyyətə qayıtması üçün müəyyən vaxt lazımdır.

Son illərdə yeni inkişaf göstəriciləri nümayiş etdirən Azərbaycan iqtisadiyyatı qlobal iqtisadiyyata əhəmiyyətli dərəcədə daxil olub. Ona görə dünyada baş verən təlatümlərin, risklərin milli iqtisadiyyatımıza təsir etməsi qaçılmazdır. Son onilliklərdə baş vermiş beynəlxalq maliyyə-iqtisadi böhranları da bunu təsdiq edir. Lakin bildiyiniz kimi, dövlətimiz hər dəfə bütün sınaqlardan üzüağ, alnıaçıq çıxıb.

Koronavirus infeksiyasının yayıldığı son aylarda Azərbaycanda da iqtisadiyyatda azalmalar baş verdi. Təbii ki, buna dünyada neftin qiymətində baş verən kəskin azalma da əhəmiyyətli dərəcədə təsir etdi. Lakin Azərbaycan ümumilikdə dayanıqlıq nümayiş etdirib. İqtisadiyyatımızda baş verən azalma kritik səviyyədə deyil, xarici borclarımızda artım yoxdur, monetar siyasətdə heç bir dəyişiklik baş verməyib, inflyasiya proqnozlaşdırılan səviyyədədir. Bunun da səbəbi təbii ki, respublikamızda yaradılmış möhkəm iqtisadi təməldir. Xüsusən son illərdə qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən yeni iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımızın neftdən asılılığının azaldılması istiqamətində mühüm irəliləyiş baş verib, dövlət büdcəsinin formalaşmasında qeyri-neft gəlirlərinin səviyyəsi əhəmiyyətli dərəcədə artıb. Ona görə son aylarda neftin qiymətinin aşağı düşməsinə, ixracın azalmasına baxmayaraq, iqtisadiyyatımızda kəskin təbəddülatlar baş verməyib.

Onu da unutmaq lazım deyil ki, ölkəmizdə koronavirus təhlükəsi meydana çıxandan sonra Azərbaycan dövləti iqtisadiyyatın deyil, məhz insanların təhlükəsizliyini prioritet edib. İqtisadiyyatı bərpa etmək olar, amma itirilmiş insan həyatını yox. Cənab Prezident iyunun 9-da modul tipli xəstəxanaların açılışında bu məsələyə olduqca müdrik münasibət bildirərək deyib: *"Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik"*.

Koronavirus infeksiyasının yayılması göstərdi ki, insan həyatı olduqca qiymətlidir və təəssüf ki, bir sıra hallarda xəstəliyə yoluxanları həyata qaytarmaq mümkün olmur. İqtisadiyyatda baş vermiş azalmanı isə ən qısa müddətdə artımla əvəz etmək mümkündür. Cənab İlham Əliyev üçün ən həssas məsələ insanların sağlamlığıdır. Əlbəttə, pandemiyanın Azərbaycan iqtisadiyyatına vurduğu zərərin həcmi barədə danışmaq hələ ki, tezdir. Amma görülən qabaqlayıcı tədbirlər iqtisadi fəallığın bərpası prosesinə kömək edəcək.

### Beynəlxalq maliyyə institutları ilə milli maraqlar çərçivəsində əməkdaşlıq güclənir

Son dövrlərin bir reallığı da odur ki, Azərbaycan dövləti öz daxili imkanları hesabına lazım olan bütün layihə və proqramları yerinə yetirir. Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 17 ildə ölkəmizdə həyata keçirilən iqtisadi və sosial layihələrin böyük qismini məhz dövlətimizin özü heç bir kənar maddi dəstək olmadan həyata keçirib. Yəni ölkəmizə qoyulan sərmayələrin əsas hissəsi məhz daxili imkanlar hesabınadır.

Bununla belə dövlətimiz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığa daim açıqdır. Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı indiyədək ölkəmizdə bir sıra layihələrin həyata keçirilməsində yaxından iştirak ediblər. Prezident İlham Əliyevin Asiya İnkişaf Bankının rəhbərliyi ilə iyunun 1-də, Dünya Bankının rəhbərliyi ilə isə iyunun 17-də keçirdiyi videokonfranslarda səslənən fikirlər göstərdi ki, tərəflər əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə konkret layihələr də var.

Öncə onu qeyd edim ki, hər iki beynəlxalq təşkilat Azərbaycanın inkişafını daim obyektiv şəkildə qiymətləndiriblər. Məsələn, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Həmçinin Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər də Dünya Bankının sonuncu "Doing Business" hesabatında yüksək qiymətə layiq görülüb və Azərbaycan 190 ölkə arasında 25-ci yerə yüksəlib. Dünyanın bir çox ölkələrini geridə qoymaqla Azərbaycan həm də Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Dünya Bankının Azərbaycanla əməkdaşlığına gəldikdə qısa müddətdə bu əlaqələr qarşılıqlı etibar və etimada əsaslanaraq ardıcıl davam etmiş və çox yaxşı haldır ki, indiki mürəkkəb zamanda da proses səngiməmişdir. Təsadüfi deyil ki, Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığa başladığı dövr ərzində ölkəmizin iqtisadiyyatı 3 dəfə böyümüş, yoxsulluq problemi demək olar ki, həll edilmişdir. Məhz bu kimi səbəblər üzündən keçən il Dünya Bankı ilə yeni milli iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə danışıqlara başlanıb. Hazırda tərəflər 2016-2020-ci illəri əhatə edən strategiya üzərində çalışırlar və onun müddəti məlum səbəblər üzündən 1 il artırılıb.

Ümumiyyətlə, indiyəcən ölkəmizin Dünya Bankı ilə müxtəlif sahələri əhatə edən birgə layihələrinə 3,5 milyard dollardan çox vəsait ayrılmışdır. Lakin Prezident İlham Əliyevin videokonfransda qeyd etdiyi kimi, gələcək üçün icra olunası layihələr, həyata keçiriləsi planlar hələ çoxdur: *"Əlbəttə, bizim planlarımız, ölkənin müasirləşdirilməsi, iqtisadiyyatımızın qeyri-enerji sektorunun inkişaf etdirilməsi və sözsüz ki, infrastruktura investisiya yatırılmasının davam etdirilməsi ilə bağlı planlarımız var. Beləliklə, mən əminəm ki, gələcəkdə çox müsbət əməkdaşlığımız olacaq"*.

### Özünüməşğulluğun miqyası genişləndiriləcək

Qeyd edildiyi kimi, Azərbaycan dövləti öz daxili imkanları hesabına çoxsaylı sosial-iqtisadi layihələr həyata keçirir. Bununla bərabər, Azərbaycan beynəlxalq maliyyə qurumlarının ölkəmizin sosial-iqtisadi inkişaf tələblərinə uyğun təklifləri də zaman-zaman dəyərləndirir.

Əldə olunmuş razılığa əsasən, Dünya Bankı Azərbaycana özünüməşğulluq proqramının həyata keçirilməsində dəstək verəcək. Prezident İlham Əliyevin 2019-cu il yanvarın 22-də Davos Dünya İqtisadi Forumunda Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva ilə görüşü zamanı ölkəmizdə özünüməşğulluq proqramının genişləndirilməsində Dünya Bankı ilə əməkdaşlığa dair razılıq əldə olunmuşdu. Bununla əlaqədar olaraq Dünya Bankı və Azərbaycan hökuməti arasında ölkəmizdə özünüməşğulluq proqramının genişləndirilməsində Dünya Bankı ilə əməkdaşlığı nəzərdə tutan "Məşğulluğa Dəstək Layihəsi" üzrə kredit sazişi imzalanıb.

Dəstək çərçivəsində bank ölkəmizə təxminən 100 milyon dollar vəsait ayıracaq və bunun hesabına 15 minə yaxın adam sözügedən proqrama cəlb olunacaq.

Bankın rəhbər şəxsləri ilə videokonfransda Prezident İlham Əliyev buna görə təşəkkürünü ifadə edərək deyib: *"Mən, həmçinin özünüməşğulluq proqramı ilə bağlı bizə dəstək göstərilməsinə dair müraciətimə dərhal cavab verdiyinə görə Dünya Bankına xüsusi minnətdarlığımı bildirmək istərdim. Həmin müraciət 2019-cu ilin yanvarında təqdim olunmuşdu və bir ildən də az müddət ərzində biz artıq bütün hazırlıq işlərini tamamlamışıq. Mənə məlumat verilib ki, Dünya Bankının özünüməşğulluq layihəsində iştirakı təxminən 100 milyon ABŞ dolları həcmində olacaq. Buna görə təşəkkür edirik. Bu il biz bu proqramla 15 minə yaxın adamı əhatə etməyi planlaşdırırıq və əlbəttə ki, Dünya Bankı tərəfindən əlavə maliyyələşdirmə yüksək qiymətləndirilir və alqışlanır"*.

Bu layihə ən yaxşı təcrübələr əsasında özünüməşğulluq proqramının genişləndirilməsi və işsiz kimi qeydiyyatda olan məcburi köçkünlərin, ünvanlı dövlət sosial yardımı alanların, qadınların, gənclərin həmin proqrama cəlb edilərək onlar üçün Dünya Bankının vəsaitləri hesabına kiçik bizneslərin yaradılmasını nəzərdə tutur.

### Suvarma və su təchizatında yeni texnologiyalardan istifadə zərurətə çevrilir

Müasir dünyada su həmişə aktual problemlərdən olub. Bu, Azərbaycanda da belədir, ona görə bu gün biz sudan daha səmərəli istifadə etməli, itkiyə yol verməməliyik. Ona görə suvarma ilə bağlı sahələr üzrə müasir texnologiyalara əsaslanan yeni infrastrukturun yaradılmasına ehtiyac var. Çünki vəziyyətin qiymətləndirilməsi nəticəsində hazırda respublikamızda çox böyük su itkiləri ilə üzləşirik. Buna görə də Prezident tərəfindən müxtəlif nazirlərin təmsil olunduğu və Baş Nazirin müavininin rəhbərlik etdiyi, digər nümayəndələrin iştirakı ilə xüsusi hökumət komissiyası yaradılıb. Komissiyanın araşdırmaları nəticəsində bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40-50 faizini itiririk.

Azərbaycanın Dünya Bankını və Asiya İnkişaf Bankını əməkdaşlığa dəvət etdiyi sahələrdən biri suvarma və su təchizatı ilə bağlıdır. Dünya Bankının rəhbərliyi ilə söhbət zamanı *"Xüsusən ötən il bizdə ciddi quraqlıq oldu. Bu il də həmçinin... Ona görə də hökumət bunun üzərində çalışır. Biz ilkin addımlarımızı bir və ya iki ay ərzində atmağı planlaşdırırıq"*, - deyən Prezident İlham Əliyev onların bu sahədə ölkəmizlə əməkdaşlığının vacibliyini önə çəkdi.

Asiya İnkişaf Bankına gəldikdə bu maliyyə institutu indiyədək Azərbaycanda dövlət və özəl sektorlarda 80-dən çox layihənin həyata keçirilməsi üçün kredit, qrant və texniki yardım ayırıb. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrindədir. İndiyə qədər AİB tərəfindən Azərbaycana ayrılan kredit, qrant və texniki yardımların ümumi məbləği 3 milyard ABŞ dollarından çoxdur. Asiya İnkişaf Bankı Cənub Qaz Dəhlizi layihəsinə kredit verən ilk böyük beynəlxalq banklar arasında da birinci olub.

Asiya İnkişaf Bankının maliyyə dəstəyi verdiyi layihə və proqramların icrası nəticəsində Azərbaycanda 500 minə yaxın insan fasiləsiz içməli su ilə təchiz olunub, 240 min insan daşqın və subasmaların təsirindən müdafiə olunub, 100 min ev təsərrüfatı elektrik enerjisi ilə təmin edilib. 325 kilometrlik avtomobil yolları salınıb və ya təmir edilib. 400-dən artıq məcburi köçkün ailəsinin yaşayış şəraiti yaxşılaşıb, 4 məktəb bərpa olunub, məcburi köçkünlərə əksəriyyəti qadınlar olmaqla kiçik kreditlər verilib.

Hazırda bu bankla da yeni layihələr üzərində iş gedir. Bunlardan biri respublikamızda kənd təsərrüfatı torpaqlarında suvarma sistemlərinin yüksək texnologiyalar əsasında yenidən qurulmasıdır. Bu barədə Azərbaycanla Asiya İnkişaf Bankı arasında 2018-ci ildə razılıq əldə olunub. Bu razılıq əsasında bankın mütəxəssisləri Naxçıvanda suvarma sistemlərinin inkişaf layihəsini hazırlamağa başlayıblar. Bu ilin yanvar ayında Asiya İnkişaf Bankı layihənin texniki əsaslandırılması məqsədilə 1,2 milyon dollar həcmində qrant ayırıb. Kreditin ümumi məbləği isə təqribən 100 milyon ABŞ dolları olacaq.

Həyata keçiriləcək yeni layihə su kanallarında yeni texnologiyaların tətbiqini, müasir idarəetməni, kanal istiqamətinin seçilməsində Coğrafi İnformasiya Sistemindən istifadəni əhatə edir ki, bu da suyun məhsuldarlığını artıracaq və itkiləri aradan qaldıracaq.

Prezident İlham Əliyev isə yeni texnologiyalara əsaslanan suvarma sistemlərinin bütün ölkə ərazisində yaradılmasında maraqlıdır. Təsadüfi deyil ki, Asiya İnkişaf Bankının nümayəndələri ilə görüşdə Prezident İlham Əliyev *"Sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim"* deyə bildirib.

### Müasir innovasiyaların tətbiqi dairəsi genişlənir

XX əsrin son onilliyindən etibarən informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Ümumiyyətlə, gələcəkdə ölkələrin rəqabət aparmaq qabiliyyəti onların informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadəsindən asılı olacaq. Ona görə də müasir çağırışlar baxımından İKT-nin inkişaf səviyyəsi hər bir dövlətin sosial-iqtisadi, o cümlədən hərbi-siyasi potensialının göstəricilərindəndir. Amma hazırda planetin sakinlərinin çoxu bu texnologiyaların üstünlüklərindən istifadə edə bilmir. Hətta dünyada təqribən 4 milyard insanın internetə çıxışı belə yoxdur.

Regionun aparıcı dövlətləriindən olan Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Ölkəmizdə vətəndaşların internetin imkanlarından geniş istifadə etmələrinin təmin olunmasına, İKT infrastrukturunun yaradılmasına və gücləndirilməsinə, İKT xidmətlərinin tətbiqinin genişləndirilməsinə böyük diqqət yetirilir. Əksər sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılıb. Bu mənada təsadüfi deyil ki, bu gün İKT sektoru Azərbaycanda energetikadan sonra ən dinamik inkişaf edən sahədir. Həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə ən son texnoloji yeniliklər tətbiq edilib, internetə simli, simsiz, mobil texnologiyalarla çıxış imkanları yaradılıb. Evlərdə, iş yerlərində istifadə edilən kompüterlərin sayı artıb. İlk telekommunikasiya peyki "Azerspace-1", yer səthinin müşahidə peyki "Azersky" və nəhayət, 2018-ci ildə üçüncü peykimiz orbitə çıxarılıb və bununla da Azərbaycan kosmik ölkələr sırasına qoşulub. İKT üzrə yüksəkixtisaslı kadr hazırlığı da genişləndirilib, həmçinin "elektron hökumət" üzrə xidmətlərin sayı və keyfiyyəti artırılıb.

İyunun 16-da Prezident İlham Əliyevin "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və şirkətin digər nümayəndələri ilə keçirdiyi videokonfransda səslənən fikirlər də göstərdi ki, Azərbaycan cəmiyyət həyatının bütün sahələrində yüksək texnologiyaların, innovasiyaların tətbiqinə və bu istiqamətdə dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığa daim maraqlıdır. Ən mühümü isə budur ki, pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq Azərbaycan hökuməti bu sahədə nəzərdə tutduğu bütün tədbirləri sürətlə həyata keçirmək əzmindədir.

Prezident İlham Əliyevin videokonfransda bəyan etdiyi əməkdaşlıq prioritetləri göstərir ki, Azərbaycan çağdaş dövrün bütün çağırış və tələblərinə cavab verən mükəmməl siyasət yürüdür. "Hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır", - deyə cənab Prezident bildirib.

### Regional inkişaf siyasətinin təcəssümü

Azərbaycan Prezidentinin qarşıya qoyduğu əsas məqsəd və vəzifələrdən biri də indiyədək əldə olunan sosial-iqtisadi uğurların davamlı olması və miqyasının daha da genişlənməsidir. Bu sırada regionların inkişafı, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi qarşıya qoyulan əsas vəzifələrdən biri olub.

Bu baxımdan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası qarşıya qoyulan bu vəzifələrin həyata keçirilməsində mühüm rol oynamaqdadır. 16 il əvvəl başlanan regionların inkişafı proqramları Azərbaycanın sosial-iqtisadi həyatına yeni nəfəs gətirməklə bu istiqamətdə dövlət siyasətinin yeni müstəviyə qədəm qoymasını təmin edib. Həmin proqramların icrasının və yaradılmış potensialın nəticəsidir ki, dünyada iqtisadi geriləmənin yaşandığı və hər bir dövlət üçün sınaq dövrü olan illərdə Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən yeni iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Zaman göstərir ki, İlham Əliyev 2004-cü ildən başlayaraq bu dövlət proqramlarını təsdiq etməklə çox böyük uzaqgörənlik edib. Çünki onların nəticəsində Azərbaycanın imkanlarından səmərəli istifadə olunub, bütün iqtisadi potensial hərəkətə gətirilib ki, bunun da uğurlu nəticələri göz önündədir. Ümumi daxili məhsulun dəfələrlə artımı, qeyri-neft sektorunda, o cümlədən qeyri-neft sənayesində qürurdoğuran yüksəliş baş verib, Azərbaycan əlverişli biznes mühitinə görə dünyanın ən qabaqcıl dövlətinə çevrilib.

Onu da qeyd edim ki, Prezidentin bölgələrə mütəmadi səfərləri və bu səfərlərin nəticəsi olaraq imzaladığı sərəncamlar dövlət proqramlarının icrasını sürətləndirməklə regionların tarazlı inkişafının təmin edilməsi, infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan verib.

Prezident İlham Əliyevin iyun ayının 24-25-də Gəncə, Samux və Mingəçevirə səfəri göstərdi ki, qlobal pandemiyanın çətinliklərinə, gəlirlərimizin azalmasına baxmayaraq, əvvəlcədən planlaşdırılmış bütün layihələrin, o cümlədən sosial proqramların həyata keçirilməsi yüksək templə davam etdirilir. Prezidentin bu səfəri regionların infrastrukturunun müasir standartlara uyğun qurulduğunun, rayonların iqtisadi potensialından səmərəli istifadə edildiyinin, yeni iş yerlərinin yaradılmasının dövlət siyasətinin prioritetləri olmasının növbəti təzahürü idi.

### Pandemiya şəraitində iqtisadi fəallıq nümunəsi

Bu səfər zamanı Gəncə şəhərində süni mərmər və qranit istehsalı zavodunun açılması Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə bağlı yürütdüyü siyasətin uğurlu nəticələr verməsinin təsdiqi idi. Eyni zamanda ümumi dəyəri 46,5 milyon manat olan bu müəssisənin fəaliyyətə başlaması respublikamızda yaradılan azad sahibkarlıq mühitinin bariz nümunəsidir. Zavodda 300-dən çox yeni iş yerinin yaradılması ölkəmizdə işsizliklə mübarizəyə verilən böyük töhfədir. Olduqca mühümdür ki, zavodda məhsulların hazırlanmasında istifadə olunan xammal Daşkəsən, Şəmkir, Ağstafa və Qaradağ rayonlarından gətirilir ki, bu da, öz növbəsində, zəncirvari şəkildə ölkədə iqtisadi fəallığın güclənməsinə yol açır.

Bütövlükdə, cənab Prezidentin son regional səfərinin mənzərəsi kifayət qədər əhatəlidir. Süni mərmər və qranit istehsalı zavodunun açılışından sonra Gəncədə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanışlıq, 1 saylı şəhər xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun istifadəyə verilməsi , "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksinin bərpadan sonra istifadəyə verilməsi, Gəncə Dövlət Dram Teatrının yeni binasında tikinti işlərinin gedişi ilə tanışlıq, Gəncəçay çayı üzərində eyni vaxtda beş körpünün bərpadan sonra istifadəyə verilməsi, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışı, Gəncə İdman Sarayının tikintisi ilə tanışlıq, Samuxda məcburi köçkün ailələri üçün inşa edilən yaşayış kompleksinin tikintisi və "Aqro Dairy" MMC-nin aqroparkının fəaliyyəti ilə tanışlıq, Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı göstərdi ki, Prezident İlham Əliyevin regional inkişaf siyasəti məhdud sfera ilə məhdudlaşmayaraq kompleks xarakter daşıyır. Buraya həm iqtisadi inkişaf, həm sosial məsələlərin yoluna qoyulması, həm də infrastrukturun yenilənməsi kimi prioritet məqsədlər daxildir.

Regional inkişaf proqramlarına bölgələrin inkişafı, infrastrukturun yenilənməsi, vətəndaşların rifahının daha da yüksəldilməsinə xidmət edən məsələlər daxildir. Təbii ki, bütün bunlar gələcək dövr üçün pandemiyanın yaratdığı məsələləri də əhatə edəcək.

### Ölkəmizin energetika sistemi güclənir

İqtisadi gücü artıran amillərdən biri də elektrik enerjisi ilə yüksək təminatdır. Sevindirici haldır ki, Prezident İlham Əliyevin diqqəti ilə ölkəmizdə yeni elektrik stansiyaları inşa olunub. Eyni zamanda mövcud stansiyaların yenidən qurulması ilə onların generasiya gücü artırılıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan həm də elektrik enerjisini ixrac edən dövlətlərdən biridir.

Bu səfərin ən yaddaqalan məqamlarından biri də Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi oldu. Tikintisinə 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanan "Azərbaycan" İstilik Elektrik Stansiyası ölkənin elektrik enerjisinə tələbatının qarşılanmasında hər zaman birinciliyini qoruyub saxlayıb. Lakin məlum olduğu kimi, 2018-ci il iyulun 3-də stansiyada baş vermiş qəza nəticəsində respublikamızın böyük hissəsində elektrik enerjisi ilə təchizatda ciddi problem yarandı.

Prezident İlham Əliyevin tapşırığı və göstərişi ilə ötən dövrdə qəzanın mənbəyi olan 330 və 500 kilovoltluq yarımstansiyalar tamamilə yenidən qurulub. Həmçinin "Azərbaycan" İES-in fəaliyyəti yeni tikilən inzibati binadan həyata keçirilir. Beləliklə, yenidənqurmadan sonra "Azərbaycan" İstilik Elektrik Stansiyasının 2400 meqavat generasiya gücü bərpa edilib və cənab Prezidentin qeyd etdiyi kimi, stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadılıb.

Azərbaycanın ən iri elektrik stansiyalarından birinin tam gücü ilə yenidən işə salınması, ilk növbədə, elektrik enerjisinə olan daxili tələbatımızın ən yüksək səviyyədə təmin olunmasında mühüm rol oynayır. Digər tərəfdən bu stansiyanın fəaliyyəti Azərbaycanın enerji ixrac imkanlarının artırılmasına xidmət edir. Və, nəhayət, Azərbaycanın postpandemiya dövründə gözlənilən yeni iqtisadi inkişaf dönəmində enerjiyə olan tələbat da artacaq ki, bu baxımdan "Azərbaycan" İstilik Elektrik Stansiyasının yenidən qurulması mühüm iqtisadi hadisə hesab oluna bilər.

Bütövlükdə, son aylarda istər siyasi, istər sosial və digər sahələrdə baş verənləri, cərəyan edən prosesləri Azərbaycan üçün kifayət qədər uğurlu saymaq mümkündür. Möhtərəm Prezident İlham Əliyev pandemiya dövrünün çətinliklərinə rəğmən ölkənin yüksəlişinə xidmət edən siyasi kursunu böyük qətiyyətlə, müdrikliklə, uzaqgörənliklə həyata keçirir. Görünən odur ki, bu siyasət hər addımda dövlətimizin milli maraqlarını, xalqımızın mənafelərini layiqincə təmin edir.

### "Biz birlikdə güclüyük!"

Hazırda dünyanın bütün ölkələri koronavirus pandemiyası ilə mübarizəyə səfərbər olunub. Azərbaycan da istisnasız olaraq bu mübarizədə olduqca mühüm rol oynayır. Pandemiya hələ davam edir və təəssüf ki, yaxın dövrlər üçün ümidverici heç nə görünmür. Azərbaycan hökuməti pandemiya ilə mübarizə üçün kifayət qədər geniş tədbirlər planı həyata keçirir. Həkimlərimiz və polislərimiz gecə-gündüz demədən insanlarımızın həyatını xilas etmək və asayişi təmin etmək üçün maksimum səy göstərməkdədirlər. Bütün bunlar göstərir ki, pandemiyaya qarşı dövlət səviyyəsində aparılan mübarizə kifayət qədər əhatəli və səmərəlidir.

Amma son günlərdə yoluxmanın sayının artması təhlükəlidir. Ona görə dövlətimiz vəziyyətin daha da pisləşməməsi üçün daha sərt tədbirlərlə əl atır, karantin rejimi sərtləşdirilir, eləcə də karantin rejimi tələblərinə əməl etməməyə görə cəzalar artırılır. Təbii ki, bu zaman məqsəd yalnız və yalnız vətəndaşların sağlamlığının qorunmasıdır. Çünki son günlər yoluxmanın artması, bir daha qeyd edim ki, vətəndaş biganəliyidir. Hələ də hər gün hansısa məclislərin keçirilməsi, kafelərin fəaliyyət göstərməsi barədə məlumatlar eşidirik. Əlbəttə, bu cür vətəndaş məsuliyyətsizliyi hallarının qarşısının alınması üçün karantin tədbirlərinin sərtləşdirilməsi labüddür.

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin tapşırığına əsasən, Baş Nazir Əli Əsədovun sədrliyi ilə keçirilən Operativ Qərargahın geniş tərkibli respublika videomüşavirəsində bütün rayon və şəhər rəhbərləri qarşısında tələblərin qoyulması mühüm əhəmiyyət kəsb edir. Çünki şəhər və rayon rəhbərləri karantin tələblərinə əməl olunmasını nəzarətdə saxlamalıdırlar. Məsuliyyətsiz addım ataraq ölkədə koronavirusla mübarizə istiqamətində görülən işlərə kölgə salan vətəndaşların əməllərinin qarşısı dərhal alınmalıdır. Məhz bu təqdirdə virusa qalib gələ bilərik.

Cənab İlham Əliyev də bütün çıxışlarında bu məsələyə toxunur. Gəncədə modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra tibb işçiləri ilə görüşdə dövlət başçısı deyib: *"Ancaq son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq"*.

Hələ bir müddət əvvəl Prezident İlham Əliyev koronavirusla mübarizədən danışarkən "Biz birlikdə güclüyük!" deyə bildirmişdi. Cənab Prezidentin bu sözləri cəmiyyətimizdəki ümumxalq birliyinin şüarına çevrildi. Bəli, el bir olsa, dağ oynadar yerindən. Bu gün hər bir kəsin məsuliyyətli olması özünün və yaxınlarının sağlamlığı ilə yanaşı, koronavirusla mübarizədə dövlətin həyata keçirdiyi işlərə dəstək verməsi milli birgəlik nümayiş etdirmək deməkdir. İnanıram ki, hər bir vətəndaş öz rəhbəri ilə daim həmrəy olacaq və respublikamız koronavirus təhlükəsini layiqincə dəf edərək inkişaf və yüksəliş yolu ilə gələcəyə doğru inamla addımlayacaq.

**Ziyad SƏMƏDZADƏ,**
**AMEA-nın həqiqi üzvü,**
**Milli Məclisin deputatı**

---

## Şamaxıda evsiz vətəndaşlar yeni mənzillərlə təmin olunublar

Şamaxıda istismar müddətini tamamlamış, qəzalı vəziyyətdə olan ikimərtəbəli yaşayış binasının söküntüsünə başlanılıb. Həmin binanın zirzəmisində çətin şəraitdə yaşayan altı ailə binanın digər sakinləri kimi artıq yeni binada yaşayacaq.

AZƏRTAC xəbər verir ki, Şamaxıda Azərbaycan küçəsində yerləşən yaşayış binası 1960-cı ildə inşa olunub. Bina istifadə müddətini başa vurduğundan yaşayış üçün yararsız hesab olunub. İki mərtəbədən ibarət binanın zirzəmisində məskunlaşan altı ailə 30 ildən çoxdur ki, burada yaşayırdı.

Ailələr Prezident İlham Əliyevin Şamaxı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında müvafiq sərəncamı ilə inşa edilən 51 mənzilli ictimai yaşayış binasına köçürülüblər.

Yeni binada təmirli mənzillərlə təmin olunan vətəndaşlar Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya bu çətin günlərdə onlara yaratdığı şəraitə görə minnətdarlıqlarını ifadə ediblər.

---

## İndoneziyada keçirilən "İçərişəhər - Bakının incisi" inşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin 27 fevral 2020-ci il tarixli sərəncamına əsasən İçərişəhərin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması çərçivəsində Azərbaycanın İndoneziyadakı səfirliyinin elan etdiyi "İçərişəhər - Bakının incisi" inşa müsabiqəsinin qaliblərinə mükafatların təqdim olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, iyulun 9-da keçirilən tədbirdə qalibləri salamlayan səfir Cəlal Mirzəyev cari ildə İçərişəhərin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 ilinin tamam olması ilə əlaqədar dövlət başçısının sərəncamına uyğun olaraq, səfirlik tərəfindən inşa yazı müsabiqəsinin elan edildiyini bildirib. Səfir İçərişəhərin Azərbaycanın zəngin tarixinin və mədəniyyətinin yaşandığı məkan olduğunu, əcnəbi turistlərin də buranı sevərək ziyarət etdiyini vurğulayıb. Səfir indoneziyalı gənclərin müsabiqədə iştirakının sevindirici hal olduğunu, müsabiqəyə qatılmaqla onların Azərbaycanı yenidən və daha dərindən öyrəndiklərinə əminliyini ifadə edib.

İndoneziyanın müxtəlif ali məktəblərindən 20-dən çox gəncin iştirak etdiyi müsabiqədə birinci yeri Padjajaran Universitetinin tələbəsi Alvis Rahman Bhasuki, ikinci yeri ASEAN Gənclər Təşkilatının üzvü Aulia Asri və üçüncü yeri İndra İravan tutub. Qaliblər müsabiqədə iştiraklarının Azərbaycanı daha yaxından tanımaq üçün gözəl bir fürsət olduğunu qeyd edərək minnətdarlıqlarını bildiriblər və müsabiqənin qalibləri olduqları üçün özlərini xoşbəxt hiss etdiklərini söyləyiblər. Daha sonra qaliblərə səfirliyin xüsusi sertifikatları və pul mükafatları təqdim edilib.

Qeyd edək ki, İçərişəhərin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması çərçivəsində Azərbaycan səfirliyi tərəfindən İndoneziyada İçərişəhərin təsviri olan poçt markası buraxılıb. Azərbaycan Turizm Bürosu ilə birgə İndoneziya turizm şirkətlərinin iştirakı ilə "Azərbaycan: Bir daha bax və Bakının UNESKO siyahısına daxil edilmiş İçərişəhəri" adlı vebinar keçirilib və İndoneziya mətbuatında "UNESKO-nun irsi - İçərişəhər - Bakının incisi" məqaləsi yayımlanıb.



# BMT-dən İlham Əliyevə tam dəstək

## Baş katib Antonio Quterreş Azərbaycan Prezidentinin həmrəylik təşəbbüsünü qlobal pandemiyaya qarşı mübarizədə mühüm addım kimi dəyərləndirdi

*Əvvəli 1-ci səh.*

Əvvəlcə onu qeyd edək ki, 130 dövlətin cənab İlham Əliyevin təşəbbüsünə dəstək nümayiş etdirməsi Azərbaycan Prezidentinə olan inamın, etibarın və etimadın göstəricisi kimi dəyərləndirilməlidir. Həmçinin beynəlxalq təşkilatların rəhbərləri tərəfindən pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, ünvanına çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun növbəti əyani göstəricisidir.

İyulun 8-də Antonio Quterreşlə telefon danışığı zamanı Azərbaycan Prezidentinin təşəbbüsünə BMT-nin Baş katibi səviyyəsində göstərilən tam dəstək də cənab İlham Əliyevin pandemiya ilə mübarizədə beynəlxalq həmrəylik modelinə verilən yüksək qiymət oldu.

Telefon danışığı əsnasında Azərbaycanın COVID-19 pandemiyasına qarşı mübarizədə Baş katibin və BMT-nin səylərini, o cümlədən çoxtərəfli əməkdaşlığı dəstəklədiyini vurğulayan dövlət başçısı Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində ianə, 30-dan çox ölkəyə isə humanitar və maliyyə yardımı ayırdığını xatırlatdı. Prezident həmçinin BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılmasında Baş katibin liderliyinin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı.

### Azərbaycan texniki-logistik dəstəyə də hazırdır

Prezident İlham Əliyev hətta xüsusi sessiyanın keçirilməsi ilə əlaqədar texniki-logistik məsələlərin həllində Azərbaycanın öz töhfəsini verməyə hazır olduğunu bildirdi.

Antonio Quterreş isə həm cənab İlham Əliyevin xüsusi sessiyanın keçirilməsi təşəbbüsünü dəstəklədiyini, həm də texniki-logistik məsələlərin həlli ilə əlaqədar BMT-nin Azərbaycan tərəfi ilə birlikdə işləməyə hazır olduğunu söylədi. Eyni zamanda Baş katib Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün fəal surətdə çalışdığını bildirdi.

2016-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri BMT üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində elan edilib. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Elə həmin sammitdə Azərbaycan da Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub.

Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş hədəflər böyükdür və 17 prioritet vəzifə qarşıya qoyulub. Yeni məqsədlərin özünəməxsusluğu isə bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsində əks olunur. Azərbaycan dövləti bu 17 məqsədi əhatə edən uğurlu dövlət siyasəti həyata keçirməkdədir.

Bir sözlə, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticə etibarilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda daha sürətlə reallaşmasına yol açıb.

### Azərbaycan qlobal əməkdaşlığa layiqli töhfələr verir

Prezident İlham Əliyev və Baş katib Antonio Quterreş telefon danışığında əminliklərini ifadə ediblər ki, keçiriləcək xüsusi sessiya qlobal pandemiyaya qarşı mübarizədə önəmli addım olacaq.

Əlbəttə ki, cənab İlham Əliyevin bu təşəbbüsünün beynəlxalq dəstək alması həm də onu göstərir ki, Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının sədri kimi qlobal səviyyədə özünün liderlik missiyasını qətiyyətlə və müvəffəqiyyətlə həyata keçirir.

Hətta qlobal böhran dövründə Azərbaycan Prezidentinin həm ölkə daxilində pandemiya ilə mübarizədəki qərar və sərəncamları, gördüyü mühüm tədbirlər, həm də beynəlxalq miqyaslı təşəbbüsləri, ehtiyacı olan 30 dövlətə göstərilən yardımlar bunu bir daha təsdiqləyir.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə pandemiyaya qarşı aparılan effektiv mübarizə dünyada qlobal əməkdaşlığa, təhlükəsizliyin möhkəmlənməsinə mühüm töhfələr verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Erməni yalanları bütün dünyada ifşa edilir

## İlham ƏLİYEV: "Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilibdir"

*Əvvəli 1-ci səh.*

Bu beynəlxalq tədbir həm də Prezident İlham Əliyevin N.Paşinyana və onun timsalında Ermənistana vurduğu növbəti ifşaedici diplomatik zərbə oldu.

### İşğalçı ölkədə faşizm və terrorçular qəhrəmanlıq simvoludur

Həmin vaxt Prezident İlham Əliyevin çıxışında erməni terrorçusu Karapetyanla bağlı söylədikləri erməni terrorçuluğu barədə sadəcə bir faktdır. "Məzlum millət" pərdəsi arxasında gizlənən ermənilər nəinki Qafqazda, Azərbaycanda və Türkiyədə, Avropa və Amerika dövlətlərində ən qanlı hadisələrə, terrora imza atıblar. XX əsr boyu ermənilərin azərbaycanlılara, türklərə qarşı həyata keçirdikləri terror siyasətinin xronologiyasını xatırlayarkən törədilən vəhşilik və ciyanətlərin miqyası, metodologiyası qəzəb doğurmaya bilmir. İkinci Dünya müharibəsi zamanı faşistlərin əlaltısı kimi keçmiş sovet respublikaları ərazisində təxribatçılıq fəaliyyəti ilə məşğul olan, terrorçu fəaliyyət həyata keçirən Njde ləqəbli Qaregin Ter-Arutyunyanın 2016-cı ildə Yerevanda altı metrlik heykəlinin qoyulması isə Ermənistan faşizminin və terrorçularının qəhrəmanlaşdırıldığını göstərən ən böyük faktdır. O cümlədən Dağlıq Qarabağda əsgərlərimiz tərəfindən məhv edilən və Ermənistanda abidəsi qoyulmuş M.Melkonyan ən qanlı terror əməllərinə imza atmış cani idi. Xatırladaq ki, Njdenin Rusiyanın Armavir şəhərindəki erməni kilsəsinin ərazisindəki xatirə lövhəsi Prezident İlham Əliyevin müdaxiləsindən sonra yığışdırıldı.

İyulun 6-da Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak etdikdən sonra müsahibə verən Prezident İlham Əliyev bir daha bu mövzuya toxunaraq deyib: *"Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilibdir. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırmayana qədər heç kim bu haqda danışmırdı. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist onların qəhrəmanlıq simvoludur. Onların işğalçılıq siyasəti ifşa edilib. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var".*

### Aprel döyüşləri heç kimin yadından çıxmasın

Tədricən dünya birliyinin Ermənistanı işğalçı kimi qəbul etməsi ildən-ilə daha geniş miqyas alır. Ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı kimi tanımaqla yanaşı, onun nəticələrinin aradan qaldırılmasını əsas tələblərdən biri kimi irəli sürürlər. Dünya artıq erməni yalanlarına inanmır. Azərbaycanın hücum siyasəti bu yalanların hətta ermənilərin güclü şəkildə təşkilatlandıqları Fransada belə qarşısını alır. Buna sübut olaraq Fransanın bir neçə şəhərinin bələdiyyə başçısının Dağlıq Qarabağdakı separatçı rejimlə imzaladıqları "sənədlərin" Fransa məhkəmələri tərəfindən ləğv olunmasını göstərmək olar.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Dağlıq Qarabağa yeni yol çəkmək istəyinin Avropa Parlamentində kəskin etirazla qarşılanması isə bir daha göstərdi ki, Avropa İttifaqı strukturları da artıq işğal faktını konkret şəkildə dilə gətirirlər. Bu bəyanatın verilməsi Avropa parlamenti səviyyəsində Azərbaycan torpaqlarının işğalını tam mahiyyəti ilə göstərən mühüm addım olmaqla, Ermənistana və erməni yalanlarına vurulan tutarlı siyasi zərbə oldu.

Təbii ki, beynəlxalq səviyyədə əldə olunan hər bir uğurun kökündə Azərbaycan Prezidentinin müəyyən etdiyi siyasi xəttin inamla həyata keçirilməsi dayanır. Ermənistanın işğalçı siyasəti isə ən mötəbər səviyyələrdə ardıcıl etiraf olunmaqda davam edir. Nəticə etibarilə bütün bunlar torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan danışıqlarda Azərbaycanın siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirən mühüm amillərdir.

Bütün dünya Dağlıq Qarabağın Azərbaycan torpaqları olduğunu qəbul edir. Azərbaycanın üzvü olduğu BMT Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququ var. Və sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə ölkəmizin bu hüququndan istifadə etməsi qaçılmazdır. Prezident İlham Əliyev müsahibəsinin sonunda söylədiyi *"Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın"* fikri də buna işarə idi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənistan layiq olduğu cavabı hər zaman alıb və bundan sonra da alacaq

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli telekanallara müsahibəsində nasist ideologiyasının hökm sürdüyü Ermənistanın işğalçılıq siyasətini, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini zəbt edərək bir milyondan çox insanın fundamental hüquqlarını pozan bu ölkənin saxta demokratiyasını, hazırkı hakimiyyətin qurduğu diktatura rejimini növbəti dəfə konkret faktlarla ifşa edib".

AZƏRTAC xəbər verir ki, bu fikri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib ki, Ermənistan XİN Azərbaycanı Ermənistanı "faydalı düşmən" obrazında təqdim etməkdə ittiham edir. Bununla bağlı, ilk növbədə, qeyd olunmalıdır ki, Ermənistan 30 ilə yaxındır Azərbaycanın ərazilərini hərbi işğal altında saxlaması və bütün dünyanın qınadığı təcavüzkar siyasəti ilə özünə düşmən obrazını çoxdan qazanıb. Bundan əlavə, Ermənistanın hazırkı rəhbərliyinin həm iflasa uğrayan daxili siyasəti, həm də hərbi işğalı davam etdirən xarici siyasəti onun elə öz xalqının bu günü və gələcəyinə qarşı düşmən mövqeyindən çıxış etdiyini aşkarcasına nümayiş etdirir.

Azərbaycan Respublikası Prezidentinin BMT Baş Assambleyasının qlobal pandemiya ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsünə qarşı çıxış etməklə Ermənistanın hazırkı rəhbərliyi əsl simasını nümayiş etdirdi. Bütün dünyanın maraqlarına xidmət edən bu təşəbbüsün məhz Azərbaycan tərəfindən irəli sürüldüyü üçün onun əleyhinə çıxan Ermənistan, beləliklə də, xalqların sülhə hazırlanması çağırışını ciddi şübhə altına qoyur.

Azərbaycanı düşmənçilik bəyanatlarında ittiham etmək cəhdlərinə gəldikdə isə öz qanunsuz və təxribat xarakterli əməlləri ilə vəziyyətin daha da gərginləşməsinə xidmət edən təcavüzkar Ermənistan tərəfi layiq olduğu cavabı hər zaman Azərbaycanın ali rəhbərliyi timsalında alıb və bundan sonra da alacaq.

Azərbaycan və Ermənistan xalqlarının maraqlarından danışan Ermənistan rəhbərliyi nəhayət anlamalıdır ki, işğalçı qüvvələrin yalnız BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən və ətraf rayonlarından çıxması və məcburi köçkünlərin öz evlərinə qayıtması, beləliklə də, bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunması hər iki xalqın marağındadır.

# Konstitusiyaya düzəliş qərarı Paşinyana nifrəti artırıb

## Ermənistanda daxili qarşıdurma daha da kəskinləşir

*Əvvəli 1-ci səh.*

Ancaq ölkədə fövqəladə vəziyyət tətbiq olunduğuna görə referendum baş tutmayıb. Bundan sonra, iyunun əvvəlində Ermənistan parlamenti Konstitusiyaya dəyişikliklərlə bağlı referendumu ləğv etmək hüququ verən qanun qəbul edib. Referendum ləğv edilib və parlament Konstitusiyaya düzəlişlər edib. Dəyişikliklərə görə, Qrayr Tovmasyan Konstitusiya Məhkəməsinin sədri vəzifəsini itirib, ancaq o, hakim olmaqda davam edir. Bundan əlavə, üç hakimin (səlahiyyət müddəti 12 il və ya daha çox) - Feliks Tokhyan, Alvina Gyulumyan və Hrant Nazaryanın səlahiyyətlərinə son verilib.

Erməni müxalifəti düzəlişləri konstitusiya çevrilişi kimi qiymətləndirib. Ermənistanın Vatikandakı keçmiş səfiri, sabiq prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan bildirir ki, Nikol Paşinyan, eləcə də ölkənin hazırkı parlamentinin bir çox deputatı konstitusiya çevrilişinə görə mühakimə olunacaq: "Parlamentin spikeri Ararat Mirzoyanın imzaladığı qanun şəxslərin (89 + 1) konstitusiya çevrilişinə görə mühakimə olunmasına son sübut olacaq. Hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq 89 deputat və Nikol Paşinyan bu ittiham üzrə xüsusi ittiham ediləcək". Onun sözlərinə görə, vəhşi hücumlardan qurtulacaq məhkəmə, şübhəsiz ki, onları əfv etmək hüququ olmadan uzun müddətə həbs cəzasına məhkum edəcək: "Bu, ölkənin yenidən bir dövlətə çevrilməsi və insanların vətəndaş adlandırma hüquqlarını bərpa etmələri üçün lazımdır". Minasyan bu qanunun nəticələrinin də fəlakətli olacağına inanır.

Ermənistanın "Tert.am" nəşri isə yazır ki, hər şey dəyişsə də, dəyişməz qalan məqam Ermənistanda Qrayr Tovmasyan probleminin həll edilməməsidir: "Deməyə ehtiyac yoxdur, biz bununla koronavirusa qarşı necə mübarizə aparacağıq və ya aclıq astanasında olan insanlara nə yedizdirəcəyik? Bunlar mənasız xəyali məşqlərdir, bu addımla Paşinyan demək istəyir ki, vulkan, sunami və ya epidemiya da olursa-olsun, birdən kimsə bunu geri addım atma və zəiflik əlaməti hesab etməsin deyə niyyətimdən geri çəkilməyəcəyəm. Hökumətin bir qolu hökumətin digər qolunun məsələsini qanunsuz yolla həll etməyə çalışırsa, o halda necə bir ölkə daxilində birləşmək olar? Buna etiraz edənlər isə antiinqilabçı korrupsioner və quldurlar hesab olunur. Əgər bir adam hər kəsi özündən uzaqlaşdırarsa, o halda insanlar bu adamın ətrafında birləşməz, belə olan halda ölkənin bu həlledici anında həmin şəxsə qarşı birləşəcəklər və bu şəxs Nikol Paşinyandır".

Məqalədə qeyd olunur ki, Paşinyanın arqumentləri çox inandırıcı deyil, onun fikrincə, əvvəlki hakimiyyətin qəbul etdiyi qanunlar və təyin etdikləri hakimlərlə qanunsuzluqlara qarşı mübarizə aparmaq və qanun çərçivəsində hərəkət etmək olmaz: "Nə baş verir? Paşinyan və komandası "qırmızı xətt"i keçdi, qanun qəbul edərək konstitusiya quruluşunu devirdi və bu, istefa etdikdən sonra qaçılmaz olaraq məsuliyyətə cəlb ediləcəkləri ağır cinayətdir. Baş nazir vəzifəsini sonsuzluğadək saxlaya bilməyəcəyini çox yaxşı başa düşür, özü isə 45 yaşındadır, bir şey göz qabağındadır, özünə qarşı məsuliyyətsiz münasibəti var. Hər hansı bir ölkədən siyasi sığınacaq istəyəcək və bununla məsuliyyətdən yayınacaq, yoxsa məhkəmə qarşısında cavab verməkdən çəkinmirsə, bu da eyni məsuliyyətsizlikdir.

Gələcəyi məhz öz yürütdüyü siyasəti nəticəsində qeyri-müəyyən olan bir şəxsə ölkənin bu günü və sabahı etibar edilə bilməz. İlk müttəfiqi, dünənki rəqibi və bugünkü gizli tərəfdarı "Parlaq Ermənistan" partiyası Paşinyana hüquqi sehrlə xidmət etsə də, məsələ bununla həll edilmir, çünki hüquqi əks-hücum bir addımla məhdudlaşmayacaq və siyasi mübarizə düzgündür. Bu məqam keçmiş müxalifətdəki ziddiyyətli qüvvələri birləşdirəcək, çünki ölkəmizin təhlükəsizliyi təhlükə altına alınır. Bu böyük məsələnin üstündə hansı kiçik fikir ayrılıqları qaldırıla bilər? "Qırmızı xətt"i keçdikdən sonra məsuliyyətdən qaçılmazlıq məlum olduqda Paşinyan bundan sonra hər gün qanunu poza bilər, ölkədə diktatura qura bilər, hətta ona qarşı mitinq keçirənlərə qarşı güc tətbiq edə bilər, hətta qan tökməyi də gözə ala bilər, elə deyilmi? Axı ona qarşı üsyan edənləri təsnif etmək və artıq bu məsələdə obyektiv narazılığı təsbit etməyin bir yolunu tapıb. Başqa sözlə, ona qarşı çıxan xalq, sadəcə inqilabın nailiyyətlərini devirmək istəyən inqilabın keçmiş düşmənlərinin muzdlularıdır. Belə olan halda qan tökməklə yüksək dəyərlər xilas edilmiş olur. Paşinyan bu cür zəmin hazırlayır ki, xalqın adından xalqa qarşı güc tətbiq etməyə haqq qazandıra bilsin. Təsadüfi deyil ki, Paşinyan artıq ölkəmizdə müharibə olduğunu və rəqiblərlə müharibə qanunu ilə davranılmalı olduğunu bəyan edib".

Hesab edilir ki, bu vəziyyətdə Ermənistanda daxili qarşıdurma daha da kəskinləşəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəsi 65 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 65 dəfə pozub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Biz birlikdə güclüyük!

# Pandemiyanı yalnız karantin rejiminə əməl etməklə nəzarətdə saxlaya bilərik






*Əvvəli 1-ci səh.*

Hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Prezident İlham Əliyevin göstərişi ilə qısa zamanda modul tipli xəstəxanaların quraşdırılması virusa yoluxan bütün xəstələrin tibb müəssisələrində yüksək səviyyədə müalicəsinə şərait yaradıb. Yaxın gələcəkdə isə daha 10 modul tipli xəstəxananın quraşdırılması nəzərdə tutulur ki, bu da qarşıda yarana biləcək hər hansı kritik vəziyyətin zamanında qarşısını almağa hesablanıb.

Yoluxmanın sürətini azaldan effektiv tədbirlərdən biri isə vətəndaşlar arasında aparılan testlərdir. Ölkəmiz də COVID-19-a yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin sayını hər keçən gün artırır. İndiyə qədər aparılan test sayı 5 yüz mindən çoxdur.

## Məqsəd qlobal böhrandan az itkilərlə çıxmaqdır

Virusun üzə çıxdığı ilk zamandan etibarən Azərbaycanda bütün istiqamətlər üzrə pandemiya ilə mübarizə aparılır. Qlobal böhrandan az itkilərlə çıxmaq üçün bütün səylər yeni növ koronavirusa qarşı mübarizəyə səfərbər edilib.

Ölkəmizin apardığı təsirli tədbirlər sayəsində hətta pandemiyanın ilkin dalğasını qısa zamanda ram edə bildik. Tezliklə sərt karantin rejimindən normal həyata keçidimiz sürətləndi. Amma pandemiyanın şərtlərinə əməl edilməməsi virusun yoluxma sürətini birdən-birə arzuolunmaz istiqamətə yönəltdi.

Bu mərhələdə isə gecikmək, virusa qarşı lazımi tədbirləri həyata keçirməmək sonradan qarşısının alınması çətin olan vəziyyətlərə yol aça bilərdi. Buna görə də hökumətimiz yenidən sərt karantin rejiminin tətbiqini labüd hesab etdi. Dünya təcrübəsindən də göründüyü kimi, yoluxmanı azaltmaq, vəziyyəti nəzarətdə saxlamaq üçün indiki halda sərt karantin rejiminin tətbiqi ən düzgün addımdır.

## Bütün imkanlar səfərbər olunmalıdır

Buna görə də COVID-19 infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir, Goranboy, Göygöl şəhərlərinin və Abşeron, Bərdə, Samux, Siyəzən, Şəki, Xaçmaz rayonlarının ərazisində iyunun 21-dən iyulun 20-dək məhdudiyyətlər tətbiq edilib.

Nazirlər Kabinetinin sözügedən qərarına dəyişiklik edilərək, Goranboy və Göygöl rayonlarında da sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunması barədə qərar verilib.

İyulun 6-da yerli KİV nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyev söylədi ki, alınan bütün qərarlar insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaq üçündür: "Əlbəttə, bütün addımları atanda vəziyyəti dərindən təhlil edirik. Məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda, əlbəttə ki, mütəxəssislərlə, həkimlərlə məsləhətləşmələr aparılır. Yəni biz bu işi kortəbii aparmırıq, ölçülüb-biçilmiş addımlar atırıq. Bu addımların əsas məqsədi insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək".

## Pandemiya heç bir güzəştə getmir və...

Bəli, hazırda bəşəriyyət koronavirusun 2020-ci ildə insan yaşamına diktə etdiyi yeni qaydalara uyğunlaşmalıdır. Əks təqdirdə insanların sağlamlığı və həyatı təhdid altında olacaq. Pandemiya heç bir diqqətsizlik, sərvaxtlıq qəbul etmir, güzəştə getməyərək insanları şərtlərinə tabe etməyə çalışır. Buna uymayanları isə ciddi cəzalandırır. Birmənalı olaraq ölkələr hazırkı vəziyyətdə karantin rejimləri tətbiq etməli, vətəndaşlar isə sosial məsafəni qorumalı, maska taxmalı, gigiyenik qaydalara riayət etməlidir. Hələlik bu təhlükədən başqa qorunma yolu yoxdur.

Lakin dünyanı təhdid edən bu virusa dırnaqarası yanaşan, onun varlığını heçə sayan məsuliyyətsizlər də var...

Prezident müsahibəsi zamanı bu məsələyə də toxundu və bildirdi ki, xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir: "Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik. Yenə də demək istəyirəm ki, ilk gündən bu günə qədər dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydalara gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb".

## İstirahətlərindən qalmaq istəməyənlər...

Ümumilikdə, Azərbaycan cəmiyyəti qoyulan qaydaları anlayışla qarşılayır, ona əməl edir. Amma koronavirusu təhlükəli edən bilavasitə onun sürətli yoluxma xüsusiyyətidir ki, ölkəmizdə onu yox etmək üçün bütünlükdə hər bir vətəndaşın həmrəylik göstərərək qaydalara uyması vacib şərtdir.

Lakin hələ də müəyyən hallarda bunun əksi ilə rastlaşırıq. Bəzi şəxslər istirahətlərindən qalmaq, toy-nişanlarını təxirə salmaq istəmir, qohum-qonşu ziyarətlərinə ara vermir, yas mərasimlərində iştirak edir. Elələri də tapılır ki, hətta bu qanunsuz əməllərini "qəhrəmanlıq" etmiş kimi nümayişkaranə şəkildə ictimailəşdirməkdən belə çəkinmirlər. Və belə şəxslərə qarşı hüquq mühafizə orqanları ilə yanaşı, sadə vətəndaşlar da sərt reaksiya göstərməli, bu cür hallarla qarşılaşdıqda aidiyyəti üzrə məlumat verməlidirlər.

## Xalqımızı qorumalıyıq

Dövlət başçısı müsahibəsi zamanı söylədi ki, mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır: "Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda, mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq. Əgər o qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, hesab edirəm ki, biz pandemiyanı nəzarətdə saxlaya biləcəyik".

Bilməliyik ki, qaydaların pozulması hər birimizin sağlamlığını təhlükəyə atır. Virusun yoluxma sayını artıraraq, onun yox edilməsi istiqamətində görülən bütün tədbirləri effektsiz edir.

İndiki halda hər birimiz qoyulan tələblərə maksimum əməl edilməsinə çalışmalı, ictimai nəzarətçiyə çevrilməliyik. Yalnız bu yolla infeksiyaya qalib gələ, xalqımızı labüd təhlükədən qoruya bilərik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Koronavirusa qarşı mübarizədə təbliğat işləri daha da gücləndirilib

## Qazax

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən tətbiq olunmuş xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlər görülür. Ölkə daxilində koronavirusa yoluxma hallarının minimuma endirilməsi istiqamətində həyata keçirilən işlərdən biri də əhali arasında aparılan maarifləndirmə tədbirləridir.

Respublikamızın hər yerində olduğu kimi, Qazaxda da bu sahəyə xüsusi önəm verilir. Koronavirus pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunması, infeksiyanın yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması ilə bağlı maarifləndirmə və təbliğat işləri mütəmadi olaraq davam etdirilir.

Qazax Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə şəhər və kəndlər üzrə hər biri 5 nəfərdən ibarət olmaqla yaradılmış 30 mobil qrup tərəfindən yaşayış məntəqələrində əhali arasında profilaktik-maarifləndirici söhbətlər aparılır, insanlara yazılı təbliğat materialları və maskalar təqdim edilir. Sakinlərlə maarifləndirici söhbətlər zamanı dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək olmaq, ictimai nəzarəti gücləndirmək, toplu halında yığışmamaq, qoruyucu maskalardan, dezinfeksiyaedici məhlullardan istifadə, şəxsi gigiyena qaydalarına ciddi şəkildə riayət etmək, məsafəni saxlamaq, özlərində virusun simptomlarını hiss edən zaman dərhal təcili tibbi yardıma müraciət etmək tövsiyə olunur.

Tərkibində bir nəfər DİN əməkdaşı olmaqla Qazax Rayon İcra Hakimiyyəti başçısı aparatının, inzibati ərazi nümayəndəliklərinin, bələdiyyələrin və digər qurumların nümayəndələrindən ibarət yaradılmış mobil qrupun üzvləri rayon ərazisində xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə ciddi nəzarət edir, habelə fərdi izahetmə-xəbərdarlıq işi aparırlar.

Artıq bir neçə gündür ki, mobil qrup üzvləri koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə "Dövlətə dəstək olaq", "Qaydalara riayət edərək insanların sağlamlığını qoruyaq" devizi altında əhali arasında növbəti maarifləndirici tədbir həyata keçirirlər. Əhalinin sıx toplaşdığı parklarda, avtovağzalda və digər yerlərdə vətəndaşlarla, əsasən yaşlı sakinlərlə görüşərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əməl edərək 5 nəfərdən artıq qruplarda cəmləşməmələrini, ara məsafəsinin gözlənilməsini, tibbi maskadan istifadə etmələrini tövsiyə etmişlər.

"Qazax Avtovağzal" ASC-nin qarşısında, mərkəzi bazarda və ətraf ərazilərdə, "Fəxri Qazaxlılar", "Dədə Qorqud", "Səməd Vurğun" parklarında, "Səməd Vurğun" bağında, "Əsədoğlu" marketin qarşısında, eləcə də əhalinin kütləvilik təşkil etdiyi qapalı və açıq ərazilərdə aparılan maarifləndirmə və təbliğat zamanı əhalinin bir qisminin hələ də karantin rejiminin tələblərinə ciddi yanaşmamasını müşahidə edən mobil qrup üzvləri bir daha vətəndaşların son dərəcə məsuliyyətli olmalarını bildiriblər. Xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq hər cür ehtiyat tədbiri görməklə bu qaydalara riayət etmələrini xahiş ediblər.

Maarifləndirmə zamanı qrup üzvləri vətəndaşlara istər ictimai nəqliyyatda, istərsə də qapalı məkanlarda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlərə əməl etməyən, pozuntu hallarına yol verən şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görüləcəyini bildiriblər. Vətəndaşlara tibbi maska paylayan qrup üzvləri ondan istifadənin hər birimizin, xüsusən də doğmalarımızın, yaxınlarımızın, cəmiyyətimizin hər bir fərdinin sağlamlığı üçün vacib olduğunu bir daha əhalinin nəzərinə çatdırıblar.

## Gədəbəy

Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayevin, rayonun hüquq mühafizə orqanları rəhbərlərinin və İcra aparatında yaradılmış qərargah üzvlərinin iştirakı ilə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar tətbiq olunan karantin rejiminin vəziyyəti ilə bağlı rayonun müxtəlif ərazilərində reyd keçirilmişdir.

Reyd iştirakçıları rayonun mərkəzində yerləşən ictimai iaşə obyektlərində və ərzaq mağazalarında olmuş, vətəndaşlarla, satıcılarla söhbət etmiş, karantin rejimi qaydalarına əməl olunması vəziyyəti ilə maraqlanmışlar.

Reyd zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə koronavirus pandemiyasının əhalinin sağlamlığına vura biləcəyi zərərin qarşısının alınmasından ötrü bütün zəruri tədbirlərin görüldüyü diqqətə çatdırılmışdır. Bir daha vətəndaşların müəyyən olunmuş tələblərə ciddi şəkildə əməl etməsinin, tibbi-mühafizə vasitələrindən, maska və əlcəklərdən müntəzəm istifadə etməklə sosial məsafənin gözlənilməsinin vacibliyi qeyd edilmişdir. Tətbiq olunan karantin rejimində qarşıya qoyulan tələblərin əhalinin sağlamlığının qorunmasına və koronavirus pandemiyasının törədə biləcəyi faciəvi nəticələri qabaqlamağa xidmət etdiyi diqqətə çatdırılmışdır.

Eyni zamanda ictimai-iaşə obyektlərinin və ərzaq mağazalarının rəhbərlərinə karantin rejiminin tələblərinə ciddi əməl olunması barədə göstərişlər verilmişdir.

Tövsiyələri razılıqla qarşılayan sakinlər koronavirus pandemiyası ilə mübarizədə ölkə Prezidenti İlham Əliyevin vaxtında qəbul etdiyi qərarları alqışlamış, karantin dövründə həm dövlət tərəfindən, həm də Heydər Əliyev Fondu tərəfindən aztəminatlı ailələrə göstərilən maddi və mənəvi dəstəyə görə minnətdarlıq etmişlər. Onlar karantin rejiminin tələblərinə bundan sonra da ciddi əməl edəcəklərini bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Koronavirusa yoluxmuş bütün şəxslərin müalicəsi dövlət hesabına həyata keçirilir

## Əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi ən mühüm və prioritet vəzifədir

Çinin Uhan şəhərindən başlayıb, qısa zaman ərzində bütün dünyaya "ayaq açan" yeni növ koronavirusa - COVID-19-a yoluxanların sayı artıq 12 milyonu ötüb. İnfeksiya yeni yayılmağa başlayan ərəfədə insanlar havaların isinməsi ilə virusun da yox olacağına ümid bəsləyirdilər. Lakin yaz aylarında gözlənilənlərin tamam əksi olan mənzərə yarandı. Yay başlayanda vəziyyət daha da pisləşdi. Virus nəinki çox yayıldı, hətta daha aqressiv hal aldı.

Mütəxəssislər fevralda müşahidə olunan koronavirus xəstəliyi ilə son aylardakı xəstəliyin arasında fərqin çox böyük olduğuna diqqət çəkirlər. Həmin vaxt daha çox yaşlılar, yanaşı xəstəliyi olanlar arasında ağırlaşma və ölüm hallarına rast gəlinirdisə, son aylarda eyni vəziyyət gənclər arasında da müşahidə olunur. Bunun bir səbəbi yoluxmanın çoxluğudursa, digər səbəbi virusun aqressiyasında müəyyən fərqlərin meydana çıxmasıdır.

Araşdırmalar göstərir ki, COVID-19-un son mutasiyası əvvəlkilərdən 8 dəfə tez yayılma gücünə malikdir. Digər mülahizəyə görə isə, virus mutasiyaya uğradıqca zəifləyə də bilər. Hazırda mikrobioloqlar, virusoloqlar bununla ciddi məşğuldurlar. Digər tərəfdən isə virusa qarşı peyvəndin hazırlanması istiqamətində müxtəlif ölkələrdə aparılan tədqiqatlar davam edir. Bu müddətdə dünya dövlətləri vətəndaşlarını qorumaq üçün mümkün olan müxtəlif mübarizə üsullarından istifadə edirlər.

Azərbaycan koronavirusla mübarizəyə infeksiya hələ sərhədlərimizə çatmadan öncə başladı. Ölkədə yanvar ayından etibarən virusun yayılmasının qarşısının alınması üçün çevik, qabaqlayıcı tədbirlər görülməyə başlandı. Qısa zaman ərzində dövlətin bütün imkanları pandemiyaya qarşı səfərbər olundu. İnfeksiyanın xaricdən idxalının qarşısını almaq üçün sərhədlər bağlandı. Məhz dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, məhdudlaşdırıcı tədbirlər, karantin rejiminin tətbiqi ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını aldı.

Lakin mayda karantin rejiminin yumşaldılması bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstəliyin yayılma sürətini artırdı. Bir çox vətəndaşlar yumşaldılmanı koronavirusun yox olması kimi anlayaraq, qoyulan qaydalara etinasız yanaşdı. Sosial məsafə saxlanılmadı, maska taxılmadı, nəticədə bu məsuliyyətsizliyin acı reallığı göz önündədir. İyun ayının ortalarından koronavirus ölkə ərazisində sürətlə yayılmağa başladı, gündəlik təsdiq edilmiş yoluxma hallarının sayı 500-ü ötdü, virus qurbanlarının sayı çoxaldı.

Gündəlik koronavirusa yoluxan xəstələrin sağalanların sayından artıq olması təcili tibbi yardımın operativliyinə də mənfi təsir göstərir, səhiyyə müəssisələrinin işini bir qədər də ağırlaşdırır. Mövcud yoluxma dinamikası xəstəxanaların dolmasına, yerlərin çatışmamasına səbəb olur.

"Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 161 nömrəli qərarında edilən dəyişikliyə əsasən, hava-damcı yolu ilə yoluxmuş xəstələrlə təmasda olan şəxslərin karantin nəzarətinə götürülməsi qaydasında yeni qaydalar müəyyənləşdi. Qərara edilən yeni dəyişikliyə görə, laboratoriya müayinələri nəticəsində yoluxucu xəstəliyə yoluxma faktı təsdiq edilmiş şəxslər xəstəliyi yüngül formada keçirdiyi hallarda və xüsusi tibb müəssisəsindən kənarda müalicə olunması mümkün hesab edildikdə yaşadıqları və ya olduqları yerdə təcrid olunurlar və onların üzərində tibbi müşahidə həyata keçirilir.

Virusa yoluxma sürətinin artması nəzərə alınaraq, bu dəyişikliyin COVID-19 xəstələrinin müalicəsinə tətbiqi Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müzakirə olundu. Xəstəliyi yüngül simptomla və ya simptomsuz keçirən şəxslərin ev şəraitində təcridi və müalicəsi barədə qərar qəbul edildi.

Koronavirusla mübarizədə yaranan problemlərin aradan qaldırılması üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə (TƏBİB) yardım etmək üçün Səhiyyə Nazirliyi tərəfindən yaradılmış işçi qrupu rəhbərliyinin qərarı ilə Bakı Baş Səhiyyə İdarəsinin tabeçiliyində olan tibb müəssisələrini əhatə edən 39 ərazi tibb məntəqəsi yaradıldı. Yaradılmış tibb məntəqələrinin əsas öhdəliyi COVID-19 virusuna yoluxmuş simptomsuz və yüngül keçirən xəstələrin ev şəraitində müayinə və müalicəsini təmin etməkdir. İşçi qrupunun vəzifələrinə isə həmin ərazi tibb məntəqələrinin işinin düzgün təşkili, işçi heyətinin təlimatlandırılması, iş prosesinin idarəedilməsi, koordinasiyası, monitorinqi və keyfiyyətə nəzarət aiddir.

Baş Səhiyyə İdarəsinin rəisi Nelli Veysova Səhiyyə Nazirliyi tərəfindən koronavirusa yoluxmuş vətəndaşların evdə müalicə alma prosesi haqqında məlumat verərkən deyib ki, yoluxma şübhəsi yarandıqda ilk addım poliklinikaya telefon zəngi vasitəsilə müraciət etməkdir. Bundan dərhal sonra sahə həkimi sorğu-sual əsnasında xəstənin vəziyyətini dəyərləndirmək üçün məlumat toplayır. Yalnız bu həkimin qərarının əsasında yoluxma şübhəsi ilə müraciət etmiş vətəndaşın ünvanına COVID-19 testini keçirmək məqsədilə tibb işçisi yönləndirilir. 1-3 günə qədər testin cavabı SMS vasitəsilə vətəndaşa bildirilir və bu müddət ərzində COVID-19 virusuna yoluxma şübhəsi ilə müraciət edən şəxsin vəziyyəti sahə həkimi tərəfindən izlənilir. Test nəticəsi müsbət olan təqdirdə həmin şəxslər qeydiyyata alınır, xəstəliyi simptomsuz və ya yüngül simptomlarla keçirən vətəndaşlar evdə müalicə almaq üçün dövlət tərəfindən dərman preparatları ilə təmin olunurlar. Dərman dəstlərinə vitamin C, vitamin D3, Maqnezium, Sink, Selen və Parasetamol kimi preparatlar daxildir. Adı çəkilən preparatların qəbulu müalicə və xəstəliyin gedişatı ərzində yaranma ehtimalı olan fəsadların qarşısını almaq məqsədilə təyin olunur. Sahə həkimləri COVID-19 virusuna yoluxmuş evdə müalicə alan xəstələrin vəziyyətini 14 gün ərzində gündəlik olaraq müşahidə edirlər. Xəstəliyin gedişatında ağır simptomlar aşkar edilərsə və yoluxmuş şəxsin ümumi vəziyyətində kəskinləşmə müşahidə olunarsa, həmin xəstənin stasionar şəraitdə müalicəni davam etmək zərurəti sahə həkimi tərəfindən müəyyən edilir. Eyni zamanda xəstənin vəziyyətində şiddətli kəskinləşmə baş verərsə, həmin şəxs və onun yaxınları təcili tibbi yardıma 103 qısa nömrə vasitəsilə müraciət etməlidirlər.

Baş Səhiyyə İdarəsinin rəisi qeyd edib ki, digər infeksion xəstəliklərlə yanaşı, COVID-19 virusunun da inkubasiya dövrü 21 gün təşkil edir və bu səbəbdən yoluxmuş xəstələrə həmin müddət ərzində yaşayış yerlərini tərk etməyə icazə verilmir.

Evdə müalicəyə cəlb olunan koronavirus xəstələrindən iltizam alınır. "Evdə müşahidə edilməyə dair iltizam" sənədi şəxsdən analiz götürülən müddətdən etibarən imzalanır. TƏBİB-in hazırladığı sənəd analiz nümunəsi götürülən zaman 2 nüsxədə doldurulur. Sənəddə müşahidə olunan şəxsə aid bəzi məlumatlar qeyd olunur. Tibb işçisinin müraciəti zamanı dürüst məlumatları verməklə həkim məsləhətlərinə ciddi riayət edilməlidir.

İltizam sənədində qeyd olunub ki, müşahidə müddətində evi tərk etmək və ziyarətçi qəbul etmək qəti qadağandır. Bu prosesə nəzarət xüsusi mobil tətbiq vasitəsilə həyata keçirilir. Mobil tətbiq mütləq qaydada yüklənilməlidir. Mobil tətbiqin aktiv olması, təyin olunan vaxt müddətində elektron məruzələrin göndərilməsi və s. bundan irəli gələn məsələlərin icrası mütləqdir.

Təqdim edilən təlimata uyğun şəxsi gigiyena qaydalarına ciddi riayət edilməli və olduğu yerdən asılı olmayaraq tibbi maska taxılmalıdır. Müşahidəsi evdə aparılan xəstələr sağalana qədər onların sağlamlıq vəziyyəti ailə/sahə həkimi tərəfindən nəzarətdə saxlanılır. Sənəd iki halda - laborator test nəticəsi "neqativ" olduqda, həkimin qərarı ilə şəxs müalicə üçün xüsusi rejimli xəstəxanaya keçirildiyi vaxtdan etibarən qüvvədən düşür.

Karantin rejimini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Xəstəxanada və ya evdə olmasından asılı olmayaraq, koronavirus infeksiyasına yoluxmuş bütün şəxslərin müalicəsi dövlətin hesabına həyata keçirilir. Bunun üçün ölkədə kifayət qədər dərman ehtiyatı var. Azərbaycan aylardır bütün imkanlarını koronavirusla mübarizəyə yönəldib. Əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi dövlət üçün ən mühüm və prioritet vəzifədir. COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması üçün Azərbaycanda hökumətin ciddi nəzarəti altında hərtərəfli tədbirlər davam etdirilir. İnfeksiyanın geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq yeni növ koronavirus sahəsində çalışan bir qrup xarici mütəxəssis Azərbaycana dəvət edilib. Rusiya və Türkiyədən gələn infeksion xəstəliklər üzrə mütəxəssislər, reanimatoloq və pulmonoloqlar Operativ Qərargahın tibbi heyəti ilə görüşlər keçirir, COVID-19 pandemiyasına qarşı görülən tədbirlər sahəsində təcrübə mübadiləsi aparırlar.

Türkiyə Səhiyyə Nazirliyinin COVID-19 üzrə elmi heyətinin üzvləri, eləcə də Rusiya və Türkiyədən olan yüksəkixtisaslı həkimlər xüsusi rejimli xəstəxanalarda olacaq, xəstəliyin qarşısının alınması üçün yerli mütəxəssislərlə birgə müalicə və profilaktika sahəsində çalışacaqlar.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



# 2020-ci il “Könüllülər ili”dir



● Xoş məram

# İnsanseverlik böyük dəyərdir



**“Bir çox ölkələrdə gəncləri birləşdirən təşkilatlar, qurumlar, ictimai birliklər var, o cümlədən Azərbaycanda da. Amma hesab edirəm ki, Könüllülər hərəkatı bu ictimai təşkilatlar arasında xüsusi yer tutur. Çünki Azərbaycan könüllüləri həm vətənpərvərdirlər, həm biliklidirlər, həm istedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər”.**

*İlham ƏLİYEV*

**Son illərdə Azərbaycanda həyata keçirilən irimiqyaslı tədbirlər ölkə gənclərinin xüsusi fəallığı ilə müşayiət olunur. Müxtəlif sahələri əhatə edən çoxsaylı beynəlxalq əhəmiyyətli tədbirlərdə ölkə gəncləri öz bacarığı, əzmi, intellektual səviyyəsini layiqli şəkildə nümayiş etdirirlər. Gənclərimizin könüllü olaraq yaxından iştirak etdiyi bu tədbirlər cəmiyyətdə böyük rəğbətlə qarşılanır.**

DOST Agentliyi və ilk DOST mərkəzi fəaliyyətə başladığı gündən “Könüllü DOST” proqramı bu qurumun hərəkətverici qüvvələrindən birinə çevrilib. İndiyədək proqramda iştirak üçün 10 mindən çox müraciət olub və ötən dövrdə 250-dək könüllü DOST mərkəzlərinə cəlb edilib. “Könüllü DOST” proqramı məzunlarından 17 nəfəri Agentliyin və DOST mərkəzlərinin əməkdaşları kimi fəaliyyətlərini davam etdirirlər.

## Əlilliyimin olması fəaliyyətimə heç bir əngəl yaratmadı



“Könüllülük fəaliyyətimə 2015-ci ildə başlamışam. Bu dövr ərzində müxtəlif kateqoriyadan olan insanlarla işləmək, onlarla lazımi səviyyədə ünsiyyət qurmaq və problemlərinin həllində müəyyən kömək göstərmək mənə çox böyük təcrübə qazandırıb. Könüllülük fəaliyyəti dövründə ən böyük uğurum Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən imzalanan təşəkkürnamə olub”. Bu sözləri DOST Agentliyində könüllü kimi fəaliyyətə başlayan, hazırda isə fəaliyyətini DOST mərkəzinin əməkdaşı kimi davam etdirən Arzu Məsimov dedi. 1994-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində anadan olan Arzu Azərbaycan Universitetinin “Sosial iş” ixtisasını bitirib. O, bu sahə üzrə praktiki biliklərə yiyələnmək üçün “Könüllü DOST” proqramına qoşulmaq qərarını verib. Daha sonra Arzu xüsusi vurğulayıb ki, proqram çərçivəsində əlilliyi olan gənclərin də könüllü kimi fəaliyyət göstərmələrinə burada lazımi şərait yaradılır: “2-ci qrup əlil olmağım fəaliyyətimə heç bir əngəl yaratmır. Bu proqram vasitəsilə xeyli praktiki biliklər əldə etdim. Sosial həssas qrupa aid insanlarla işləmək, rastlaşdıqları problemləri həll etmək, onlara yaxından dəstək olmaq məni çox xoşbəxt edir. Sonradan müsahibədən keçərək DOST mərkəzində işləmək şansım yarandı. Bundan sonra da əldə etdiyim biliklərdən səmərəli istifadə etmək, daha çox insana faydalı olmaq istəyirəm”.

## Məqsəd hər kəsə dost məramı ilə yanaşmaqdır



Könüllülük fəaliyyətinə hələ tələbə ikən başlayan Kənan Əliyev hazırda 2 saylı Bakı DOST Mərkəzinin əməkdaşıdır. Eyni zamanda “İrəli” İctimai Birliyinin İdarə Heyətinin üzvüdür və o, indiyədək könüllülüklə bağlı bir çox layihədə iştirak edib:

“İlk könüllü fəaliyyətimə 2014-cü ildə universitet daxilində başlamışam. Bu müddət ərzində müxtəlif birlik və dərnəklərdə, həmçinin Tələbə Gənclər Təşkilatı ilə universitet daxilində fəaliyyət göstərən debat klubunda iştirak edib, universiteti müxtəlif yarışlarda, dövlət tədbirləri və layihələrdə təmsil etmişəm. Daha sonra 2015-ci ilin yanvarından iyun ayınadək “Sos” Uşaq Kəndləri - Azərbaycan Assosiasiyası tərəfindən həyata keçirilən “Bakı Ailələrinə dəstək” layihəsində könüllü olaraq çalışmışam. 2015-ci ildə Yasamal rayon əlillər cəmiyyətində həssas qruplara yönəlmiş layihələrin təşkilində, elə həmin ilin aprel ayında “Birgə və sağlam” İctimai Birliyinin layihələrinin həyata keçirilməsində iştirak etmiş və hər ilin aprelində olan “Aprel Autizm ayı” tədbirlərinin təşkilini həyata keçirmişəm”.

Kənan Əliyev könüllü fəaliyyəti ərzində onun ən böyük uğurunun daha çox insanla ünsiyyət qurması və illər keçməsinə baxmayaraq, onlarla əlaqəsinin davam etməsi olduğunu da qeyd etdi: “Hərbi xidmətdən qayıdandan sonra DOST Agentliyinin işinə nəzər yetirdim və öz fəaliyyətimlə agentliyin prinsiplərinin uyğun olduğunu gördüm. Əsas məqsədim ədalət prinsipi əsasında, şəffaflıqla vətəndaşlara xidmət, cəmiyyətə faydalı olmaq üçün buradakı işimi vacib bildim.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir. Könüllü fəaliyyətinə başladığım gündən bəri reallaşdırılan layihələrdə həm iştirakçı, həm təşkilatçı qismində fəaliyyət göstərmişəm”.

Hazırda ən böyük məqsədlərindən birinin güclü, vətənpərvər gənclərlə birlikdə cəmiyyətə faydalı işlər görmək olduğunu qeyd edən Kənan fəaliyyət göstərdiyi bütün qurumlarda potensialı olan gənclərin üzə çıxarılması üçün əlindən gələni etdiyini deyir.

## İnsanlara yardım etmək, onlardan təşəkkür eşitmək çox sevindiricidir



“Gümüşü DOST” altproqramı vasitəsilə DOST mərkəzində könüllü kimi fəaliyyət göstərən 68 yaşlı Qurbantac Qazıbəyova qazandığı təcrübə barədə təəssüratlarını bizimlə bölüşdü. Fəaliyyəti müddətində sosial sahəyə aid biliklərini artırdığını deyən Qurbantac xanım gənclərlə işləməyin ona böyük zövq verdiyini bildirdi:

“Mənim ixtisasım alman dili müəllimidir. Uzun müddət məktəb direktoru işlədikdən sonra təqaüdə çıxmışam. Vaxtımı səmərəli keçirmək məqsədilə “Könüllü DOST” proqramı vasitəsilə “gümüşü könüllü” oldum. Bu dövrdə mən həm öyrəndim, həm də ehtiyac olanda gənc həmkarlarıma məsləhətlər verdim. İnsanlarla ünsiyyət qurdum, yeni dostlar qazandım, maraqlı günlər keçirdim. Hər gün sosial həssas qrupa aid insanlara yardım etmək, onlardan təşəkkür eşitmək həqiqətən çox sevindirici idi”.

*İradə ƏLİYEVA, “Azərbaycan”*

# Onlar ölkə rəhbərinin bütün çağırışlarına səs verirlər

**Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışları əsasında Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin (AKƏM) vətəndaşlar arasında başladığı “Bir-birimizi qoruyaq” adlı sosial kampaniya çərçivəsində aparılan maarifləndirmə tədbirləri uğurla həyata keçirilir.**




Xüsusi karantin rejimi müddətində vətəndaşların kütləvi toplaşdıqları yerlərdə sosial məsafənin qorunması və digər davranış qaydaları ilə bağlı sakinlər arasında ictimai maarifləndirmə işi aparmaq, onların sağlamlığını qorumaq məqsədini daşıyan bu aksiyaya qazaxlılar böyük həvəslə qoşulmuşlar. Bununla əlaqədar Qazax Gənclərin İnkişaf və Karyera Mərkəzinin “Gənc könüllülər”i demək olar ki, fəaliyyətlərini gündən-günə genişləndirirlər. Onlar əhalinin çox olduğu məkanlarda - ictimai iaşə obyektlərində, dayanacaqlarda koronavirusdan qorunmaq məqsədilə hazırlanan və üzərində “Burada qaydalara riayət olunur”, “Bir-birimizi qoruyaq”, “Aralı əyləşin, sağlam olun” və sair təbliğat və təşviqat yazıları əks olunmuş stikerləri avtobuslara, müəssisələrin divarlarına yapışdırır, məlumatlandırıcı flayerlər paylayırlar.



Bundan başqa, gənc könüllülərin karantin dövründə əsas fəaliyyətləri insanların daha sıx toplaşdıqları yerlərdə maarifləndirmə işlərini genişləndirməkdir. Elə bu günlərdə könüllülərdən bir qrupu kampaniya çərçivəsində əhalinin ən çox müraciət etdikləri və xidmətindən yararlandıqları “Azərpoçt” MMC-nin Qazax poçt filialında olmuş, insanlar arasında maarifləndirmə aparmış, dezinfeksiya işləri həyata keçirmiş, tibbi maskalar paylamışlar. Gənc könüllülər poçt filialına müraciət edənlərə bu ağır günlərdə öz şəxsi məsuliyyətlərini hiss etməyə, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın elan etdiyi karantin rejimi qaydaları ilə bağlı tələb və tövsiyələrinə əməl etməyə çağırmışlar.

Qazaxın gənc könüllüləri iyunun 26-da Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə də aksiya keçirmişlər. Onlar pandemiya ilə əlaqədar elan edilmiş sərt karantin dövründə şəhid ailələrinin hərəkət və yaşayış yerini tərk etmək imkanlarının məhdudlaşdırıldığını, onların digər gündəlik işlərə daha çox vaxt sərf etdiklərini nəzərə alaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin məzarlarını ziyarət etmiş, şəhid qəbirləri ətrafında təmizlik və abadlıq işləri aparmışlar. “Gənc könüllülər”in bu nəcib aksiyası şəhid ailələri, eləcə də rayon sakinləri tərəfindən rəğbətlə qarşılanmışdır. Hazırda Qazaxın “Gənc könüllülər”i öz fəaliyyətlərini davam etdirirlər.

*Sabir ƏLİYEV, “Azərbaycan”*

● Tribuna

# Pandemiya ilə mübarizədə qalib birliyimizdir

**Respublikanın 35 şəhər və rayonundakı 24 ali və 12 orta-ixtisas təhsili müəssisəsini təmsil edən 1100-dən çox tələbə-könüllü “Böyüklərimizi qoruyaq”, “Könüllü Qonşu”, “Bir-birimizi qoruyaq!” devizləri altında keçirilən tədbirlərdə nümunəviliyi ilə seçilib.**



Ötən ildən Çindən dünyaya yayılan, inkişaf etmiş ölkələri belə iflic halına salan koronavirus Azərbaycandan da yan keçmədi. Bildiyimiz kimi, fevral ayında respublikada ilk COVID-19-a yoluxma qeydə alınmışdı. Həmin gündən dövlətimiz bu gözəgörünməz düşmənlə mübarizəyə başladı. Azərbaycan Prezidentinin göstəriş və tövsiyələri ilə həyata keçirilən qabaqlayıcı tədbirlər öz müsbət nəticəsini verdi: digər qonşu ölkələrə nisbətən bizdə xəstəliyə yoluxanların və ölənlərin sayının xeyli aşağı olması Ümumdünya Səhiyyə Təşkilatının da diqqətini cəlb etdi.

Ümumiyyətlə, Azərbaycan son illər bir sıra böyük, qlobal məsələlərin həllində nəinki müsəlman şərqinə, əslində dünyanın inkişaf etmiş ölkələrinə nümunəyə çevrilib. Paytaxt Bakı daha çox əhəmiyyət daşıyan beynəlxalq konfransların, mədəniyyət və idman tədbirlərinin keçirildiyi məkan kimi tarixə yazılır.

COVID-19 pandemiyasının ölkəmizə və xalqımıza gətirdiyi problemlər isə danılmazdır. Lakin dövlət və xalq birliyinin bu problemdən xilas yolu olmasını unutmamalıyıq. Çünki bu birlik, həmrəylik koronavirusu aradan qaldırmağa hesablanıb. Prezident İlham Əliyevin pandemiyaya qarşı mübarizədə xalqa müraciəti öz müsbət nəticələri ilə diqqəti çəkməkdədir.

Azərbaycan Prezidentinin uzaqgörən siyasəti sayəsində pandemiyanın geniş yayılmasına qarşı qısa zamanda reaksiya göstərildi: Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, ölkə ərazisində xüsusi karantin rejimi elan edildi. Bakıda inşa olunmuş “Yeni klinika”nın koronavirus xəstələrinin müalicə olunması üçün istifadəyə verilməsi, eyni zamanda, Sumqayıt şəhərində tibbi maskaların və dezinfeksiya məhsullarının istehsalı üçün inşası başa çatmış zavodun açılışı görülən çox mühüm tədbirlərdəndir.

Bu çətin günlərdə ölkə rəhbərinin çağırışlarına dəstək məqsədi ilə fəal könüllü gənclər də xeyriyyə aksiyalarına start verdilər. Onlar əhalinin həssas təbəqəsinə aid olan ailələrə və evindən çıxa bilməyən yaşlı insanlara müntəzəm olaraq yardım göstərirlər. Könüllü-tələbə gənclər çətinliklərlə üzləşən ailələrə ərzaq ehtiyaclarını ödəmək məqsədilə yardım aksiyalarını davam etdirirlər. Bundan əlavə, mövcud vəziyyətlə əlaqədar qan qıtlığı səbəbindən Azərbaycanda talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən, təcili əməliyyata ehtiyacı olan şəxslər üçün ölkənin aparıcı könüllü təşkilatları tərəfindən qanvermə aksiyaları keçirilir.

Biz - Azərbaycan Texniki Universitetinin könüllüləri də öz təbliğatımızla əhalini təlimatlandırmağa çalışırıq ki, bu bəladan yalnız dövlətimizlə bir olmaqla özümüzü və yaxınlarımızı, bununla da cəmiyyətimizi qoruyub saxlaya bilərik.

Pandemiya dövründə, yəni bugünədək könüllülər ordusu keçirilən aksiyalarda fəallıqları ilə ictimaiyyətin digər ictimai-sosial təbəqələrinə nümunə olublar. Bu müddətdə 35 şəhər və rayonlardakı 24 ali və 12 orta-ixtisas təhsil müəssisəsini təmsil edən 45000-dən çox könüllü-tələbə “Böyüklərimizi qoruyaq”, “Könüllü Qonşu”, “Bir-birimizi qoruyaq!” devizləri altında keçirilən tədbirlərdə nümunəvi xidmət göstərib, ölkə vətəndaşlarının bu istiqamətdə maarifləndirilməsi, onlara sosial xidmət göstərilməsi yönümündə reallaşan layihələrdə iştirak edib.

Üzvü olduğum Azərbaycan Texniki Universitetinin könüllülərinin fəaliyyətinə gəlincə, yalnız onu deyə bilərik ki, komandamız ölkədə keçirilən bütün beynəlxalq tədbirlərdə də yaxından iştirak edir, bu xidmət növünün əhəmiyyətini digərlərinə də aşılamağı bacarırıq.

*Emil ƏLİYEV, Azərbaycan Texniki Universitetinin 4-cü kurs tələbəsi, könüllü*

● Danışır könüllü gənclər

# Təmənnasız xeyirxahlıq ənənələrini yaşadırıq

**Bütün dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar mən də könüllülük fəaliyyəti ilə məşğulam. Bakı Dövlət Universitetinin məzunuyam. Kimsəsizlərə, xəstələrə və yaşlı insanlara xidmət göstərən könüllülərə qoşulmaqdan çox məmnunam. İlk könüllülük fəaliyyətimə bizim binadan bir az aralıda yaşayan Məlahət nənəylə dostluqdan, xidmətdən başlamışam.**

Bütün qonşular bilir ki, Məlahət nənə kimsəsizdir, neçə illərdir ağır diabet xəstəsidir. Onun yeməyini diqqətdə saxlayıram, dərman preparatlarını vaxtlı-vaxtında alıb gətirirəm. Ayda bir dəfə müayinədən keçmək üçün yaşadığımız rayonda şəkər xəstəsi kimi qediyyatda olduğu poliklinikaya aparıb-gətirirəm. Bu işlərdə dostum Namiq və Razim Ağazadə qardaşları mənə yaxından dəstək olurlar.

Gördüyüm könüllülük fəaliyyətindən məmnun olduğum üçün yaxından tanıdığımız ruhi xəstə, kimsəsiz və heç yerdə işləməyən Gülzar İbrahimovaya da əl tutmağı, ərzaq yardımı etməyi özümə borc bilirəm. Karantin rejimi ilə əlaqədar onun da dükan-bazar işlərini görürəm.

Bundan başqa, gündə bir dəfə qonşu binada yaşayan Aydın əmiyə və Sədəf xalaya da baş çəkirəm. Onların övladı şəhərdən kənar rayonda yaşadığından gündəlik ərzaqlarını alıb verirəm. Lazım gələndə mobil telefonumla məni harada olsa tapırlar. Onlar “Evdə qal” çağırışına əməl edir, məsafə gözləyir və maskadan istifadə edirlər. Xatırladım ki, Aydın əmi və həyat yoldaşı Sədəf xala pensiyaçıdırlar, maliyyə baxımdan heç bir çətinlikləri yoxdur, amma karantin rejimi ilə əlaqədar könüllülərin xidmətindən istifadəyə ehtiyacları var. Odur ki, bu işi öhdəmə götürməkdən, sosial sahədə xüsusi qayğıya ehtiyacı olan insanlar ilə qarşılıqlı ünsiyyətdən məmnunluq duyuram.

Universitetdə təhsil aldığım müddətdə paralel şəkildə məşğul olduğum könüllülük işində insanlarla ünsiyyət qurmaq, qocalara və kimsəsizlərə kömək olmaq bir çox sahədə dünyagörüşümüzü, məsuliyyətimizi artırır. Bu sahədə qazanmış olduğum hər bir uğurun arxasında gördüyüm işlərin böyük rolu olduğunu qeyd etmək istərdim. Könüllülük müasir dövrdə Azərbaycan gəncinin qazanmış olduğu ən böyük uğurdur!

*Həsən HƏSƏNLİ, Bakı şəhəri, Nərimanov rayonu*

# Fəaliyyətimizdən hamı razıdır

**Prezident İlham Əliyevin ölkədə 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında sərəncamı bir daha Azərbaycan gəncliyinə göstərilən böyük etimad, onların potensialına olan tükənməz inamın göstəricisi, könüllü gənclərimizin fəaliyyətinə verilən ali dəyərdir.**



Mən də mədəniyyət sahəsində fəaliyyət göstərən könüllü olaraq vətənpərvərlik hissinin daha da dərinləşməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında səy və bacarığımı əsirgəmirəm. Həmçinin Ulu Öndərin adını daşıyan mərkəzin könüllüsü olaraq Heydər Əliyev irsinin gənclər arasında təbliğini həvəslə həyata keçirirəm.

Aparılan işlərin əsas istiqamətlərindən biri Qarabağ əlillərinə, ahıllara, şəhid və aztəminatlı



ailələrə, qaçqın və məcburi köçkünlərə kömək etməkdir. Biz mədəniyyət könüllüləri olaraq bu sahələri daim diqqətimizdə saxlayırıq. Belə ki, həftənin müəyyən edilmiş günlərində şəhid ailələrinə baş çəkir, onlarla maraqlanır, həyət və baxçalarında təmizlik işləri aparır, səliqə-sahman yaradırıq. Bayram günlərində həmin ailələrə sovqatlar çatdırırıq.

Bərdə Regional Mədəniyyət İdarəsinin bir çox tədbirlərində mədəniyyət könüllüsü olaraq iştirak etmişik.

2020-ci ilin “Könüllülər ili” elan edilməsi ilə əlaqədar “Gənclərlə əl-ələ”, “Könüllülük mədəniyyətinin formalaşmasında gənclərin rolu”, xalq mahnılarından ibarət “Musiqili xatirələr” karaoke yarışmasında iştirak etmişəm.

Pandemiya dövründə Prezident İlham Əliyevin “Biz birlikdə güclüyük” çağırışı mədəniyyət könüllülərinin şüarına çevrilmişdir. Xüsusilə 65 yaşdan yuxarı, tənha insanlara kömək məqsədilə onlara ərzaq və əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və s. işlərin görülməsində yardımlar edirik. Bu, üzvü olduğum cəmiyyətə qayğı və diqqətdir, xeyirxahlıq missiyasıdır. Bundan qürur duyur, könül rahatlığı tapırıq.

Karantin dövründə insanlarda xoş əhvali-ruhiyyə yaratmaq üçün biz fərqli mövzularda və istiqamətlərdə videoçarxlar hazırlayaraq sosial şəbəkələrə yerləşdiririk.

*Nigar HÜSEYNZADƏ, Tərtər rayonu, Heydər Əliyev Mərkəzinin könüllüsü*





# Mədəniyyət





● Möhsün Sənani - 120

**1900-cu il iyunun 19-da Tiflisin "Şeytanbazar" məhəlləsində ruhani ailəsində dünyaya gəlib Möhsün Cəfərov. Sənani təxəllüsü ilə şöhrətlənənədək həyatın çox çətin sınaqlarından, ağrı-acılı yollarından keçib. Beş yaşında ata-anasız qalıb. Ona və bacısına nənələri himayədarlıq edib. Nənəsi Möhsünün gələcəyini öz arzularına görə qurmaq istəyib. 1906-cı ildə mədrəsəyə aparıb ki, nəvəsi oxuyub atası kimi molla, mərsiyəxan olsun. Ancaq iki il sonra, 1908-ci ildə Möhsünün mədrəsə təhsili yarımçıq qalıb, nənəsi vəfat edib. Möhsünlə bacısı xalaları molla Zinyətin ümidinə qalıblar.**



## Sənətkar ömrü





Xalasından gileyli olmayıb. Molla Zinyət Möhsünlə bacısını öz övladlarından ayırmayıb. Onun təhsili ilə özü məşğul olub. Amma xalasının böyük ailəsinin maddi vəziyyəti ürəkaçan deyildi. Balaca Möhsün düşünüb ki, onun və bacısının varlığı doğmalıq gördükləri bu ailənin sıxıntısını artırır. 1909-cu ildən işləməyə başlayıb. Çörəkpulu qazanmaq üçün ən çətin işlərin qulpundan yapışıb, "Şeytanbazar"da işləyib, hamballıq edib.

Səhnə onu cazibəsinə salanda yeniyetməlik çağlarındaydı. Yerli teatrların və Tiflisə qastrola gələn aktyorların tamaşalarına böyük maraqla baxıb. Teatr aktyorlarının oyunlarını, meydanlarda dərvişlərin oxumalarını təqlid edib. Tamaşaçıların qarşısına isə ilk dəfə 1911-ci ildə çıxıb. O günün qürur və həyəcanı həmişəlik yaddaşına həkk olub.

Sənət yolu ilə irəlliləyib. 1912-ci ildə kiçik həvəskarlar dərnəyinə qoşulub. Dərnəkdə birpərdəli səhnələrdə oynayıb.

Tiflis müsəlman artistləri dəstəsinin aktyoru Mirzəxan Quliyev Möhsün Sənaninin ilk rejissoru olub. Tiflisdə Mirzəxan Quliyevlə bərabər, Mirzəli Abbasov, Mustafa Mərdanov, İbrahim İsfahanlı kimi aktyorlar onun istedadına inanıb, gələcəyinə ümid bağlayıblar. Beləcə, Möhsün səhnəyə daha həvəslə çıxmağa başlayıb.

Ancaq onun sənət yoluna sədd çəkmək istəyənlər də olub. Bunlar əsasən atası Molla Sadığın dostları idi. Maddi sıxıntılar da bir tərəfdən onu üzürdü. Belə ağır günlərində gürcü dostunun atasının köməyi ilə "Vano dayı" tramvay parkında işə düzəlib. Aldığı maaşla həm bacısını, həm özünü təmin edib, həm də xalasıgilə əl tutub.

1915-ci ildə Möhsün Sənani, Mirzəli Abbasov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov və başqaları Tiflis truppasına cəlb olunublar. Elə həmin il Hüseyn Ərəblinskinin iştirakı ilə "Kaveyi-Ahəngər" tamaşası hazırlanıb. Möhsün Sənaniyə də dəmirçi Kavənin oğlu rolu həvalə edilib. Rolun öhdəsindən bacarıqla gəlib.

Yenə də dolanışıq qayğısı çəksə də, maddi ehtiyac içərisində sıxılsa da, bütün işlərdən, peşələrdən əl çəkib. Həyatını həmişəlik aktyorluğa bağlayıb. Mirzəli Abbasov, Mirzəxan Quliyev, Əşrəf Yüzbaşıyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Tərlan xanım, Əli Əskərov, Həsən Səbri, Paşa Mahmudov, Kaftaradze, Panfiliya Tanailidi, Əli Qurbanov (Möhsün Sənaninin xalası Molla Zinyətin oğlu, sonralar Azərbaycanın xalq artisti olub) və başqa çox məşhur sənətkarların fəaliyyət göstərdikləri Tiflis teatrı truppasının ən gənc aktyoru olub. Gənc olsa da, qısa müddətdə "Arşın mal alan"da Süleyman bəy, Vəli, "Məşədi İbad"da hambal, "Nadir şah"da Rzaqulu, "Otello"da Kasio kimi rollar ona həvalə edilib. Möhsün Sənani ilk tamaşaçı alqışlarını, uğurlarını qazandığı Tiflis teatr truppasında 1920-ci ilədək çalışıb.

Möhsün Sənani və onun kimi bu teatrda sənətdə ilk addımlarını atan aktyorların çoxu sonralar Bakıya gəlib, səhnə fəaliyyətlərini bu şəhərdə davam etdiriblər. Möhsün Sənani Azərbaycan Dövlət Dram Teatrında işə başlayıb. Bu teatrın səhnəsinə ilk gündən tanınmış aktyorlarla çıxması onu həm həvəsləndirib, həm də məsuliyyətini artırıb. "Vaqif" tamaşasında Eldarı, "Göz həkimi"ndə sürücü Həsənağanı elə ifa edib ki, tamaşaçıları fərqli, bənzərsiz aktyor olduğuna inandırıb. Tezliklə məşhurlaşıb. Repertuarı zənginləşib. O, komik və tragik rolları eyni peşəkarlıqla ifa edib. Geniş yaradıcılıq imkanlarına, yüksək aktyorluq qabiliyyətinə, oxumaq, oynamaq bacarığına malik olub.

Ona tamaşaçı sevgisi qazandıran, şöhrətləndirən yalnız teatr sənəti olmayıb. Möhsün Sənani istedadı ilə kinorejissorların da diqqətini cəlb edib. 1923-cü ildə iyirmi üç yaşında ilk dəfə ekrana çıxıb. "Qız qalası" filmində epizodik döyüşçü rolu ona böyük uğur gətirib. Çox keçməyib ki, "Bayquş" və "Bismillah" filmlərinə dəvət alıb. Beləcə, Möhsün Sənani səhnədəki uğurlarını kino sahəsində də davam etdirib.

1939-cu ildə "Kəndlilər" filmindəki Eldar onun səsli kinoda ilk rolu olub. Ümumiyyətlə, Möhsün Sənaninin Azərbaycan kinosunun böyük inkişaf mərhələlərində izləri var. O, kinonun səssiz, səsli dövrünü yaşayan, ilk rəngli, eləcə də ilk genişformatlı filmə çəkilən aktyorlarımızdan biri olub. Möhsün Sənani 30-a yaxın filmdə rol alıb. "Arşın mal alan", "Bir məhəllədən iki nəfər", "Bismillah", "Bizim küçə", "Dağlarda döyüş", "Fətəli xan", "İsmət", "Kəndlilər", "Kölgələr sürünür", "Koroğlu", "Qara daşlar", "O olmasın, bu olsun", "Səbuhi", "Səhər", "Sehrli xalat", "Yeni horizont", "Qızmar günəş altında" və başqa filmlərdə o, müxtəlif xarakterli, yaddaqalan rollar ifa edib. Bu rollar, əsasən, ikinci dərəcəli və epizodik olsa da hər biri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Teatrda da, kinoda da yaddaqalan, təkrarolunmaz rollar oynayan Möhsün Sənani 1949-cu ildə Xalq artisti fəxri adına layiq görülüb.

O, ömrünün əlli ilini sənətə həsr edib. Həmin illər ərzində bir gün də səhnədən ayrılmayıb. Gözləri nurdan düşəndə də qəlbinin işığıyla, sevgisiylə sənət yoluna davam edib.

Möhsün Sənani həyatın da, sənətin də bütün çətinliklərinə mərdanəliklə sinə gərib. Ancaq teatrdan ayrıldıqdan canında dolaşan ağrılara qatlaşmaq çətin olub. Sevilən sənətkar 1981-ci il fevralın 11-də vəfat edib. Möhsün Sənanini bu gün də yaşadan və yaşadacaq xatirələr, bir də lent yazılarının yaddaşında qalan tamaşalarda, filmlərdə ifa etdiyi rollardır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Tarixləşən heykəllər

## Borcumuzdur bu ehtiram...

**Dünyanın qədim arxitektura nümunələri ilə fərqlənən şəhərləri arasında Bakının özünəməxsus yeri var. Bu sənət inciləri ən qabaqcıl məktəblərin təcrübəsindən yararlanmaqla tarixin müxtəlif dövrlərində meydana gəlib. Həmin gözəl əsərlərdən bir neçəsinin müəllifi Zivər bəy Əhmədbəyovdur. O Zivər bəy ki, bu gün qədim Bakıda özü də abidələşib…**




Bənzərsiz memarlıq nümunələri ilə mədəni irsimizə əvəzsiz töhfələr bəxş edən sənətkarın heykəli üçün yer isə təsadüfi seçilməyib. Abidə Bakı şəhərinin Yasamal rayonunda, "Nizami" metrostansiyasının qarşısındakı parkda qoyulub. Metrostansiyadan sol tərəfdə yerləşən bina Zivər bəy Əhmədbəyovun layihəsi əsasında tikilib. Metronun qarşısından keçən küçə də onun adını daşıyır.

2011-ci ildə ucaldılan abidənin müəllifi Xalq rəssamı Natiq Əliyevdir.

"Nizami" metrostansiyasının qarşısında Zivər bəyin adını daşıyan park var. Həmin ərazi uzun müddət baxımsız vəziyyətdə olub. Buradan antisanitariya şəraitində fəaliyyət göstərən yeməkxanalar və köşklər yığışdırılıb, 2011-ci ildə Zivər bəyin adını daşıyan park yaradılıb. Parkın ərazisində çoxlu sayda müxtəlif ağac və gül kolları əkilib, yaşıllıq zolaqları salınıb. Parkda müasir tələblərə cavab verən işıqlandırma sistemi qurulub.

Parkın girəcəyində altı kafkanlı və Zivər bəy Əhmədbəyovun abidəsinin arxasında avtomatlaşdırılmış qurğu ilə idarə olunan müasir üslubda fəvvarələr kompleksi quraşdırılıb və paytaxt sakinlərinin istirahəti üçün gözəl şərait yaradılıb.

Qeyd edək ki, park və abidə Prezident İlham Əliyevin sərəncamı ilə yaradılıb. Açılış mərasimi 2011-ci il may ayının 26-da ölkə başçısının iştirakı ilə keçirilib.

1918-1922-ci illərdə Bakının ilk azərbaycanlı baş memarı, şəhərin inkişafında mühüm xidmətlər göstərmiş, dövrünün görkəmli ziyalılarından olan Zivər bəy Əhmədbəyov öz layihələrində Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə böyük sənətkarlıqla birləşdirib. Bakıda Təzəpir (1905-1914), Göy məscid (1912-1913), "Doğum evi" (1910-cu illər), "Uşaq xəstəxanası" (indiki Elmi-Tədqiqat Ana və Uşaq Mühafizəsi İnstitutu, 1914-1916), Göyçayda məscid (1906), Şamaxıda İmam məscidi (1909), Cümə məscidi (1909-1918), "Səadət" məktəbi (1911-1912), bir sıra yaşayış evləri və başqa tikililər memarın layihələri əsasında inşa edilib. Vladiqafqazda da bir sıra yaşayış, məişət binaları onun layihəsinə görə tikilib.

Zivər bəy Əhmədbəyovun Əmircanda layihəsini verdiyi məscid Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESKO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Zivər bəy bəlkə də daha çox yaradıcılıqla məşğul ola, neçə-neçə gözəl əsərlər yarada bilərdi. Azərbaycanın bu dəyərli oğlunun həyatı ictimai-siyasi hadisələrin olduqca gərgin, dünyanın qarışıq, ziddiyyətli dövrünə düşüb...

1873-cü ildə Şamaxı şəhərində dünyaya gələn Zivər bəy Əhmədbəyov ömrünü maarif işinə sərf edən Gəray bəylə yaxşı təhsil görmüş, ədəbiyyatı sevən, gözəl şeirlər yazan Töhfə xanımın doqquz övladının sonuncusu olub. Şamaxının Sarıtorpaq məhəlləsindəki ata mülkündə keçən uşaqlıq illərindən musiqiyə, ədəbiyyata, rəssamlığa meyil göstərib. Atası onu əvvəl mollaxanaya, sonra gimnaziyaya aparıb. 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirib və memar diplomu ilə vətənə qayıdıb. İlk peşəkar fəaliyyətinə doğulub böyüdüyü şəhərdə başlayıb.

1902-ci ilin 31 yanvarında baş verən zəlzələ Şamaxını xarabazara çevirib.Zivər bəy Şamaxıda qalıb şəhərin abadlaşması ilə məşğul olub. Dağılmış, bərpası mümkün olmayan Cümə məscidinin yeni layihəsini hazırlayıb. Sonradan Şamaxı qırğınları zamanı qəddar ermənilərdən qaçıb bu məsciddə sığınanaları od vurub didi-diri yandıran daşnaklar top gülləsi ilə məscidin 4 minarəsini uçursalar da, bütövlükdə Cümə məscidi salamat qalıb.

Zivər bəy milyonçu Murtuza Muxtarovun sifarişilə Əmircan kəndində tikdirdiyi iki minarəli məscid bir vaxtlar Azərbaycanın ən hündür minarəli məscidi sayılıb. Minarələrin hündürlüyü 40 metrdən artıqdır.

Zivər bəy Əhmədbəyov 1907-ci ildə Bakıda başlanan abadlıq işlərinə nəzarətçi təyin edilib.O, Bakı Quberniyası İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləyib.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Bakı şəhərinin baş memarı olub.

Zivər bəy ictimai fəaliyyətlə də məşğul olub. O, 1917-ci ildə "İslam mədəniyyət abidələrini qoruyan", 1919-cu ildə isə Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olan "Yeni Şirvan" cəmiyyətlərini yaradıb.

Sovet hökuməti Zivər bəy Əhmədbəyovun savadını, bacarığını, istedadını görməməzlikdən gələ bilməzdi. Çünki yeni hökumətin yüksək ixtisaslı, peşəkar kadrlara ehtiyacı vardı. Ancaq onların keçmişini, düşüncəsini, əqidəsini, məsləkini də yaddan çıxarmayıblar. Bolşevik-daşnak fitnəsi ilə qurulan Sovet hakimiyyətinin Zivər bəyi də məhv edəcəyi gözlənilən idi. Məsələ həm də onda idi ki, Zivər bəy Əhmədbəyovun özünün də qəlbində yeni hökumətə qarşı etiraz vardı. Amma o, qurub-yaratmaq istəyirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ermənilərin şər-böhtanı, təqibləri Zivər bəyə arzularını həyata keçirməyə imkan vermirdi. O,belə bir şəraitdə işləməyin mümkünsüzlüyünü respublika rəhbərliyinə bildirdi. Bu onun yeganə etirazı olmadı. Əlli iki yaşlı memar 1925-ci ilin 16 fevralında Çəmbərkənddə yerləşən evində özünü güllələdi.

Tariximizdə ad qoymuş, vətənini, xalqını çox sevən görkəmli ziyalı, istedadlı memar Zivər bəyi də bolşevik hökuməti belə məhv edib. Ancaq onun xatirəsi soydaşları üçün hər zaman unudulmaz olacaq. Zivər bəy Əhmədbəyovun abidəsi də bu ehtiramın nümunəsidir.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yaddaş

## Dövlət Rəmzləri Muzeyi mədəni həyatımızda mühüm yenilikdir

**Son illər bir-birinin ardınca müxtəlif təmayüllü - dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr və görkəmli dövlət xadimlərinin, tanınmış şair və yazıçıların ev-muzeyləri yaradılır. Azərbaycanda milli-mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə dövlət qayğısı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.**






Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin varlığını yüksək dəyərləndirən Ulu Öndər respublikada bu sahənin genişləndirilməsinə, onların maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm vermişdir. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər görkəmli şəxsiyyətlərinin memorial-xatirə, mənzil, habelə bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmışdır.

Xatırlayanda ki, bu sıradan olan neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni vandalları tərəfindən qarət olunub və dağıdılıb ürək ağrısı ilə böyük təəssüf hissi keçiririk. İşğal olunmuş torpaqlarımızda 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalıb. Erməni terrorçuları 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv ediblər. Bu gün düşmən tapdağı altında olan Şuşada 8 muzey fəaliyyət göstərib. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın, görkəmli musiqiçi Qurban Pirimovun xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin filialı və digər müzeylərimiz tamamilə qarət edilib, binası dağıdılıb.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın tarixini və mədəni irsini özündə yaşadan muzeylərin yaradılması, bu sahəyə dövlət qayğısı, habelə muzey işinin təşkili və inkişaf etdirilməsi bu gün Azərbaycan Prezidenti İlham Əlyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə dövlət başçısının 2013-cü il 27 dekabr tarixli sərəncamı ilə qüvvədə olan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq milli mədəni irsimizin qorunması respublika ərazisində dövlət əhəmiyyətli məqsəd kimi qarşıya qoyulmuşdur. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük zəhməti sayəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu, "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Dünya İrs Siyahısına daxil edilib. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır, habelə Dağlıq Qarabağ bölgəsində müxtəlif təyinatlı yeni muzeylər yaradılır. Belə muzeylərdən biri Prezident İlham Əliyevin təşəbbüsü ilə Tərtər rayonunda inşa olunmuş Dövlət Rəmzləri Muzeyidir. İnşasına 2019-cu ilin aprel ayında başlanmış və noyabr ayında başa çatdırılmış muzey binasının ümumi sahəsi 720 kvadratmetrdir. Binanın üzərində hündürlüyü 72 metr olan dövlət bayrağı dalğalanır, ətrafındakı fəvvarə kompleksi yenidən qurulub, ərazisində zövq oxşayan səliqə-sahman və yaşıllıq yaradılıb.

Muzeyin sərgi zalında 8 bölmə var. Burada xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Cümhuriyyət dövründə, sovet Azərbaycanında və müstəqillik illərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Silahlı Qüvvələrin geyim formaları, Ümummilli Lider Heydər Əliyevin andiçmə mərasiminə dair fotoşəkilləri, dövlət rəmzləri haqqında kəlamlar nümayiş etdirilir. Muzeydə, həmçinin tarixi fotoşəkillər, poçt markaları, orden və medallar da yer alıb. Digər bir guşədə Azərbaycanın müxtəlif dövrlərini özündə əks etdirən xəritələr sərgilənib.

Cari il iyun ayının əvvəllərində Ağcabədi, Tərtər və Ağdam rayonlarına səfəri zamanı Prezident İlham Əliyev Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir. Bu münasibətlə muzey əməkdaşlarını və ictimaiyyət nümayəndələrini təbrik edən dövlət başçısı Azərbaycanın müxtəlif dövrlərini özündə əks etdirən xəritələrə baxmış, təklif və tövsiyələrini vermişdir. "Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın", - deyə ölkə rəhbəri iradını da bildimişdir.

Daha sonra Prezident İlham Əliyev çıxışında onu da vurğulayıb ki, "İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər."

Xatırladaq ki, xalqımızın qədim tarixinin öyrənilməsində, gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında və inkişafında müzeylərin mühüm əhəmiyyəti var. Onların arasında son vaxtlar bölgələrdə rəmzlər müzeylərinin yaradılması ölkəmizin mədəni həyatı üçün çox mühüm yenilikdir. Belə muzeylərin yaradılması ideyası Prezident İlham Əliyevə məxsusdur. Çünki dövlət başçısı bu ideyanı reallaşdırmaqla dövlət atributlarının tariximizdəki əhəmiyyətinə diqqət çəkib. Dövlət Rəmzləri Muzeylərinin əhəmiyyətini artıran və onları dünyada mövcud olan muzeylərdən fərqləndirən əsas cəhət də buradakı eksponatların Azərbaycanın dövlətçilik tarixini tam əhatə etməsidir. Müxtəlif dövrlərə aid dövlətlərin bayraqları, sikkələr, tarixi keçmişə dair bir çox materiallar bu muzeylərin qiymətli eksponatları sırasına daxildir. Yeni fəaliyyətə başlayan Dövlət Rəmzləri Muzeyindəki eksponatlar azərbaycançılıq məfkurəsinin uğurlu təbliği kimi ziyarətçilərdə, xüsusilə gənclərdə böyük rəğbət doğurur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Filmlərimiz xaricdə

## Hacı Zeynalabdin Tağıyevdən bəhs edən ekran əsəri beynəlxalq film festivalında

**Hacı Zeynalabdin Tağıyevdən bəhs edən "100 il şərəfli ömür" sənədli filmi Los-Ancelesdə "FLICK-FAIR" film festivalında bütün mərhələləri keçərək finala vəsiqə qazanıb və birincilik uğrunda mübarizəyə qatılıb. Qaliblərə ümumi dəyəri 10 min ABŞ dolları olan mükafat veriləcək.**




"100 il şərəfli ömür" filminin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov bildirib ki, ekran əsərinin posteri festivalın əsas səhifəsində yerləşdirilib.

Onun sözlərinə görə, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevi geniş coğrafiyada tanıtmaq, həm də onun timsalında ölkəmiz haqqında insanlara geniş məlumatlar verməkdir.

O, XX əsrin əvvəllərində baş verən tarixi, siyasi proseslərə, eləcə də böyük xeyriyyəçinin həyatının müxtəlif məqamlarına güzgü tutan kadrların Almaniya arxivlərindən əldə edilməsinə böyük zaman sərf etdiyini söyləyib.

C.Qasımov deyib ki, ekran əsərinin gələcəkdə müxtəlif beynəlxalq festivallarda nümayişi haqqında da düşünür: "Ekran əsəri vasitəsilə azərbaycanlı milyonçunun ötən əsrin əvvəllərində xalqının inkişafı naminə gördüyü çoxsaylı işləri geniş auditoriyaya çatdırmaq bizim üçün faydalıdır. Bu, insanları faydalı işlər görməyə, gənc nəsildə vətənpərvərlik hisslərini daha da yüksəltməyə hesablanmış bir addımdır".

Ssenarisi üzərində üç ildən çoxdur işlədiyini söyləyən C.Qasımov, həm tələbəlik illərində, həm də sonradan əldə etdiyi məlumatların onda əminlik yaratdığını vurğulayıb: "Elə bu məqsədlə 36 dəqiqəlik bədii-sənədli filmdə əsas kadrların 30 faizini o dövrdəki köhnə kadrlar təşkil edir. Bu kadrlar Almaniyadan əldə olunub və Rusiyanın Sankt-Peterburq şəhərində yenidən canlandırılıb. Bütün bunlar əsasən beynəlxalq festivallar üçün nəzərdə tutulub".

# OXUCULARIN NƏZƏRİNƏ

# "AZƏRBAYCAN"

***qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 02 iyun 2020-ci il tarixli sayında dərc edilmiş "Azərsu" ASC-nin daxili vəsaiti hesabına modul tipli qurğularda təmir-bərpa işlərinin elektron qaydada satın alınması məqsədilə keçirilməsi nəzərdə tutulan tenderdə yetərsay olmadığı üçün elektron satınalma ləğv olunmuşdur.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Cavanşir küçəsi, 9 ünvanında yerləşən yüksəkmərtəbəli yaşayış binalarının tikintisi obyektinin transformatorları, yüksək gərginlikli elektrik avadanlıqları, kabelləri və digər elektrik tikinti malları, onların quraşdırılması, sınaq sazlanması və işə buraxılması xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə su pompalarının satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.*

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 avqust 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **18 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **19 avqust 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# "İki sahil" - reallıqları ictimaiyyətə çatdıran qəzet



Bu gün ölkənin ən tirajlı gündəlik qəzetlərindən biri olan "İki sahil"in ilk nömrəsinin çapdan çıxmasından 29 il ötür. 1991-ci ilin 10 iyulu Azərbaycan mətbuatının sıralarına qoşulan bu nəşr az müddətdə ön sıralarda qərarlaşmağı bacardı. Xüsisilə hadisələrə obyektiv və operativ münasibət qəzetin oxucularının sayını artıran əsas amil oldu. Bu mətbu orqanında siyasətlə yanaşı, iqtisadiyyat, mədəniyyət xəbərlərinin də geniş yer alması oxucuların böyük rəğbətinə səbəb oldu, onların müxtəlif səpkili məktublarının qəzetə yol açmasına stimul verdi.

Daim azadlıq, müstəqillik öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək arzusu ilə yaşayan xalqımız 1991-ci ildə yenidən bu istəyinə qovuşsa da, həmin dövrün iqtidarının yarıtmaz siyasəti, hakimiyyət uğrunda mübarizənin dərinləşməsi Azərbaycan adlı bir dövlətin varlığını şübhə altında qoyurdu. Belə bir çətin dövrdə "İki sahil" qəzeti öz səhifələrində reallıqları olduğu kimi ictimaiyyətə çatdırmaqdan, Azərbaycanın xilaskarının Ulu Öndər Heydər Əliyev olduğunu bəyan etməkdən çəkinmədi.

"İki sahil" qəzeti ilk gündən gələcəyə böyük ümidlə yanaşdı, seçdiyi düzgün yolda inamlı addımlar atmaqla bugünkü uğurlarına stimul yaratdı. "İki sahil" qəzetinə ən böyük qiyməti elə Ümummilli Lider verib. Qəzetin kollektivi heç vaxt bunu yaddan çıxarmır. Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaradılmasının ikinci ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində müstəqilliyimizin ilk illərində yaşanan durumu təhlil edərkən reallıqların təbliğində "İki sahil"" qəzetinin də rolunu yüksək dəyərləndirərək bu sözləri deyib: "O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm".

Bu gün "İki sahil"in kollektivinin fəxr etdiyi önəmli məsələ Heydər Əliyev ideyalarına sədaqətlə xidmət etmələridir. Bu ideyalar dövlətin və xalqın inkişaf yoludur və bu yolla getmək bir vəzifə borcudur. Eyni zamanda, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən abadlıq-quruculuq işləri qəzetin daimi mövzularındandır.

Ad günün mübarək, "İki sahil"! Sən daha neçə uğurlu illər yaşayasan və ölkəmizin inkişafına öz töhfələrini verməkdə davam edəsən!

## B İ L D İ R İ Ş

03 iyul 2020-ci il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən nazirliyin Aparatının balansında olan 7 (yeddi) ədəd avtomobil üçün odsöndürən balonların satın alınması məqsədilə keçirilən kotirovka sorğusunda **"Fire Safety Caspian Azerbaijan" MMC** qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə elektrik sahəsi üçün lazım olan mal-material və avadanlıqların satın alınması üzrə

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.*

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 200 manatdır.
Təşkilat: "Azərsu" ASC
VÖEN: 9900001751
Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı
Kod: 200112
VÖEN: 9900003611
M/h: AZ37NABZ 01350100000000001944
S.W. İ. F. T. BIK: AİİBAZ2X
H/h: AZ65AİİB 33070019441100216111
İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **10 avqust 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **18 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **19 avqust 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Yevlax Rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxslərinin qanunazidd hərəkətləri ilə bağlı cinayət işi başlanıb

Koronavirus pandemiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə ölkə ərazisində elan olunan xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması və digər mənfi hallara qarşı prokurorluq orqanları tərəfindən ardıcıl və kəsərli mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xüsusi karantin rejimi ilə əlaqədar qurulmuş postlardan keçmələri üçün rayon sakinlərinə Yevlax Rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxsləri tərəfindən saxta tibbi göndəriş vərəqələrinin verilməsi barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı Yevlax Rayon Mərkəzi Xəstəxanasının vəzifəli şəxslərinin xidməti vəzifələrinin icrası ilə əlaqədar qanunsuz üstünlük əldə etmək məqsədilə qulluq mənafeyinə qəsdən zidd olaraq səlahiyyətlərindən istifadə etməklə Yevlax rayonunun ayrı-ayrı sakinlərinə xüsusi karantin rejimi ilə əlaqədar quraşdırılmış postlarda təqdim etmək üçün saxta tibbi göndəriş vərəqələri verməklə cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran hərəkətlərə yol vermələrinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Yevlax Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları, o cümlədən cinayətin törədilməsində bu və ya digər formada iştirak etmiş şəxslərin aşkarlanması istiqamətində zəruri və intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikası Baş Prokurorluğu vətəndaşlara müraciət edərək xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına, o cümlədən hər hansı qanunsuz fəaliyyətlə məşğul olmamağa çağırır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Nizami Rayon Məhkəməsinin hakimi **MƏZAHİR SADIQOVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İlham Cəfərov, İslam Əliyev və Hafiz Nəsibov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyevə atası **VƏLİ MÜƏLLİMİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Qazax Sement Zavodu" MMC-nin rəhbərliyi və kollektivi "Lider Sement" MMC-nin təsisçisi və direktoru **VAQİF RƏHİMOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6325
Sifariş 1671
Qiyməti 40 qəpik